# AZƏRNƏQLİYYATBANK ASC

**Maliyyə hesabatları**
31 dekabr 2009-cu il tarixində
tamamlanan il üzrə

**AZƏRNƏQLİYYATBANK ASC**

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| 31 DEKABR 2009-CU İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ MALİYYƏ HESABATLARI: | |
| Maliyyə Vəziyyəti haqqında Hesabat | 3 |
| Mənfəət və Zərər haqqında Hesabat | 4 |
| Kapitalda Dəyişikliklər haqqında Hesabatı | 5 |
| Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat | 6 |
| Maliyyə hesabatları üzrə qeydlər | 7-35 |

## AZƏRNƏQLİYYATBANK ASC

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2009-CU İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2009 | 31 dekabr 2008 |
|---|---|---|---|
| **AKTİVLƏR:** | | | |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 3 | 33,970,285 | 24,091,620 |
| Banklardan alınacaq vəsaitlər | 4 | 12,715,882 | 8,888,522 |
| Müştərilərə verilmiş kreditlər | 5 | 19,072,647 | 14,044,022 |
| Bina və avadanlıqlar | 6 | 3,573,482 | 162,206 |
| Ödəniş müddətinə qədər saxlanılan investisiyalar | 7 | 315,974 | 2,000,828 |
| İnvestisiya mülkiyyəti | 8 | 473,497 | 483,394 |
| Cari/Təxirə salınmış vergi aktivləri | 19 | 24,512 | - |
| Digər aktivlər | 9 | 861,681 | 1,105,231 |
| CƏMİ AKTİVLƏR | | **71,007,960** | **50,775,823** |
| **ÖHDƏLİKLƏR VƏ SƏHMDAR KAPİTALI** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| Müştəri hesabları | 10 | 44,478,746 | 39,475,552 |
| Digər öhdəliklər | 11 | 347,163 | 53,853 |
| Cəmi öhdəliklər | | **44,825,909** | **39,529,405** |
| SƏHMDAR KAPITALI: | | | |
| Nizamnamə kapitalı | 12 | 25,000,216 | 10,784,081 |
| Bölüşdürülməmiş mənfəət | | 1,181,835 | 462,337 |
| Cəmi səhmdar kapitali | | **26,182,051** | **11,246,418** |
| CƏMİ ÖHDƏLİKLƏR VƏ SƏHMDAR KAPİTALI | | **71,007,960** | **50,775,823** |

7-35-ci səhifələrdə əks etdirilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissələridir.

## AZƏRNƏQLİYYATBANK ASC

## MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2009-CU İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2009-cu bitən il üzrə | 31 dekabr 2008-ci bitən il üzrə |
|---|---|---|---|
| Faiz gəlirləri | 13 | 3,030,301 | 2,425,703 |
| Faiz xərcləri | 13 | (1,068,586) | (1,190,470) |
| **Kreditlər üzrə ehtimal edilən zərərlərdən əvvəl faiz gəliri** | 13 | **1,961,715** | **1,235,233** |
| Faiz gətirən aktivlər üzrə ehimal edilən zərərlər üçün ayrılan ehtiyat | 14 | (2,119,639) | (700,840) |
| **Xalis faiz gəlirləri** | | **(157,924)** | **534,393** |
| Xarici valyuta ilə əməliyyatlar üzrə gəlirlər | 15 | 1,996,546 | 152,598 |
| Haqq və komissiya gəlirləri | 16 | 2,035,529 | 444,219 |
| Haqq və komissiya xərcləri | 16 | (355,093) | (56,855) |
| Digər gəlirlər | 17 | 30,741 | 181,053 |
| **Xalis qeyri-faiz gəlirləri** | | **3,707,723** | **721,015** |
| Əməliyyat gəlirləri | | 3,549,799 | 1,255,408 |
| Əməliyyat xərcləri | 18 | (2,800,446) | (976,427) |
| **VERGİDƏN ƏVVƏLKİ MƏNFƏƏT** | 19 | **749,353** | **278,981** |
| Mənfəət vergisi xərci | 19 | (29,854) | (42,950) |
| **XALİS MƏNFƏƏT** | | **719,499** | **236,031** |

7-35-ci səhifələrdə əks etdirilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissələridir.

AZƏRNƏQLİYYATBANK ASC

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2009-CU İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | Səhmdar kapitalı | Bölüşdürülməmiş mənfəət | Səhmdar kapitalının cəmi |
|---|---|---|---|---|
| **31 dekabr 2007** (audit olunmayıb) | | **10,684,081** | **226,305** | **10,910,386** |
| Səhmdar kapitalının artırılması: | | | | |
| *-adi səhmlər* | 12 | 100,000 | - | 100,000 |
| Xalis mənfəət | | - | 236,031 | 236,031 |
| **31 dekabr 2008** | | **10,784,081** | **462,336** | **11,246,417** |
| Səhmdar kapitalının artırılması: | | | | |
| *- adi səhmlər* | 12 | 14,216,135 | - | 14,216,135 |
| Xalis mənfəət | | - | 719,499 | 719,499 |
| **31 dekabr 2009** | | **25,000,216** | **1,181,835** | **26,182,051** |

7-35-ci səhifələrdə əks etdirilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissələridir.

**AZƏRNƏQLİYYATBANK ASC**

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2009-CU İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ**
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2009-ci bitən il üzrə | 31 dekabr 2008-ci bitən il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Vergidən əvvəlki mənfəət | | **749,353** | **278,981** |
| Düzəlişlər: | | | |
| Faiz gətirən aktivlər üzrə ehtimal edilən zərərlər | 14 | 2,119,639 | 700,840 |
| Əsas vəsaitlərin satışından gəlir | 17 | - | (156,631) |
| Əsas vəsaitlərin satışından zərər | | 5,603 | - |
| Amortizasiya və köhnəlmə xərcləri | 6,8,9 | 327,105 | 180,675 |
| Xarici valyuta əməliyyatları üzrə kurs fərqlərindən mənfəət | 15 | (10,236) | (152,598) |
| Hesablanmış faizlərdə xalis dəyişmələr | | 1,107,149 | (368,478) |
| Aktiv və passivlərdə dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri | | **4,298,613** | **482,789** |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişmələr | | | |
| Əməliyyat aktivlərində (artımlar)/azalışlar: | | 1,494,106 | - |
| Banklara verilmiş kreditlər | | (4,106) | (764,255) |
| Müştərilərə verilmiş kreditlər | | (8,209,544) | 1,259,301 |
| Digər aktivlər | | (79,504) | - |
| Əməliyyat öhdəliklərində artımlar/(azalmalar): | | | |
| Müştəri hesabları | | 4,957,848 | 30,050,789 |
| Digər öhdəliklər | | 263,151 | 5,459 |
| Vergi tutulmalardan əvvəl daxil olan pul vəsaitləri: | | 2,720,653 | 31,034,083 |
| Ödənilmiş mənfəət vergisi | | (24,207) | (66,499) |
| Əməliyyat fəaliyyətindən daxil olan/(istifadə olunan) pul vəsaiti | | **2,696,446** | **30,967,584** |
| **İNVESTİSİYA AKTİVLƏRİ ÜZRƏ PUL VƏSAİTİNİN HƏRƏKƏTİ** | | | |
| Bina və avadanlıqların alınması | 6.9 | (3,295,558) | (1,237,453) |
| Əsas vəsaitlərin silinməsi | 6 | - | 1,513,217 |
| Ödəniş müddətinə qədər saxlanılan investisiyaların alınması | 7 | (315,974) | (1,998,771) |
| Ödəniş müddətinə qədər saxlanılan investisiyaların satılması | 7 | 1,998,771 | - |
| Qeyri-maddi aktivlərin alınması | 9 | (115,477) | - |
| İnvestisiya mülkiyyətinin alınması | 8 | - | (257,700) |
| İnvestisiya aktivlərindən daxil olan/(istifadə olunan) pul vəsaiti | | **(1,728,238)** | **(1,980,708)** |
| **MALİYYƏ AKTİVLƏRİ ÜZRƏ PUL VƏSAİTİNİN HƏRƏKƏTİ** | | | |
| Nizamnamə kapitalının artırılması | 12 | 14,216,135 | 100,000 |
| Maliyyə aktivlərindən daxil olan pul vəsaiti | | **14,216,135** | **100,000** |
| XALİS PUL ARTIMLARI | | **15,184,343** | **29,086,876** |
| PUL VƏ PUL EQVİVALENTLƏRİ, hesabat ilinin əvvəlinə | 3 | **31,273,200** | **2,186,324** |
| PUL VƏ PUL EQVİVALENTLƏRİ, hesabat ilinin sonuna | 3 | **46,457,543** | **31,273,200** |

7-35-ci səhifələrdə əks etdirilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissələridir.

## GİRİŞ

### Təşkilat və onun əsas fəaliyyəti

Azərnəqliyyatbank ("Bank") Açıq Tipli Səhmdar Bankı 1989-cu ildə Azərbaycan Respublikasında yaradılmışdır. Bank Azərbaycan Respublikası Mərkəzi Bankı ("ARMB") tərəfindən verilmiş 240 nömrəli ümumi bank lisenziyası əsasında fəaliyyət göstərir. Bankın əsas biznes fəaliyyəti Azərbaycan Respublikasında kommersiya və fiziki şəxslərlə aparılan bank əməliyyatlarından ibarətdir.

Bank A.Naxçıvani 21 ünvanında rəsmi qeydiyyatdadır. 31 dekabr 2009-cu il tarixə Bankın Azərbaycan Respublikası ərazisində 7 filialı fəaliyyət göstərməkdədir.

"Azərnəqliyyatbank" Açıq Səhmdar Cəmiyyətinin səhmdarların növbədənkənar ümumi yığıncağının 01.02.2010-cu il tarixli qərarı ilə (Protokol № 1) Bankın adı "Expressbank" Açıq Səhmdar Cəmiyyətinə dəyişilmiş və bu dəyişikliklər 04.03.2010-cu il tarixdə Azərbaycan Respublikası Vergilər Nazirliyi Bakı şəhər Vergilər Departamenti Kommersiya Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

31 dekabr 2009 və 2008-ci il tarixlərə Bankın səhmdarların strukturu aşağıdakı kimi olmuşdur:

| **Səhmdarlar** | **31 dekabr 2009** | **31 dekabr 2008** |
|---|---|---|
| | **%** | **%** |
| Hüquqi şəxslər | 99.96 | 58.60 |
| Fiziki şəxslər | 0.04 | 41.40 |
| **CƏMİ** | **100.00** | **100.00** |

## 1. Bankın fəaliyyət mühiti

Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər, o cümlədən milli valyutanın bir çox xarici ölkələrdə praktiki cəhətdən sərbəst dönərli valyuta hesab edilməməsi və nisbətən yüksək inflyasiya və güclü iqtisadi artım müşahidə olunmaqdadır. Azərbaycanın bank sektoru inam səviyyəsinin azalmasına və iqtisadi şəraitin dəyişməsinə həssasdır və müntəzəm olaraq likvidlik səviyyəsinin azalması halları ilə rastlaşa bilər.

Azərbaycan Respublikasının vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Bundan əlavə, Azərbaycan Respublikasında fəaliyyət göstərən şirkətlərin üzləşdiyi çətinliklərə müflisləşmə və iflas haqqında qanunverici bazanın təkmilləşdirilməsi zərurəti, rəsmiləşdirilmiş qeydiyyat və girovun hesabına borcların ödənilməsi prosedurlarının çatışmazlığı, eləcə də hüquqi və fiskal sistemlə bağlı digər çatışmazlıqlar daxildir. Azərbaycan Respublikasında iqtisadi inkişafın gələcək perspektivləri hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və pul islahatlarının effektivliyindən, eləcə də vergi, hüquq, normativ və siyasi sistemin inkişafından xeyli dərəcədə asılıdır.

## 2. TƏQDİMATIN ƏSASLARI

### Mühasibat Əsasları

Bankın hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS") və Beynəlxalq Maliyyə Standartlarına Şərhlər Komitəsi ("BMHSŞK") tərəfindən dərc edilən şərhlər əsasında hazırlanmışdır.

Bu maliyyə hesabatları əksi göstərilmədiyi hallarda Azərbaycan manatı ("AZN") ilə təqdim edilir. Bəzi maliyyə alətlərinin ədalətli dəyəri istisna olmaqla, bu maliyyə hesabatları, tarixi dəyər prinsiplərinə əsasən hazırlanmışdır. İşgüzar fəaliyyətin əsasən Azərbaycan Respublikasında həyata keçirildiyinə görə Bankın funksional maliyyə vahidi də Azərbaycan manatıdır. Bank mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Bu maliyyə hesabatlarını hazırlayarkən yerli mühasibat prinsiplərinə uyğun tərtib edilmiş mühasibat sistemindən istifadə edilmiş və hesabatlara BMHS-na uyğunlaşdırmaq məqsədilə düzəlişlər verilmişdir. Bu düzəlişlərə əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək üçün müəyyən təsnifləşdirilmələr, həmçinin müəyyən aktiv və passivlərin, gəlir və xərclərin maliyyə hesabatlarındakı maddələrə uyğunlaşdırmaq məqsədilə yenidən təsnifləşdirilməsi aiddir.

### Əsas təxminlər

BMHS-na əsasən hesabatların hazırlanması zamanı rəhbərlikdən müəyyən təxminlər etmək tələb olunur ki, bu da hesabatdakı rəqəmlərə təsir göstərir. Bu təxminlər, maliyyə hesabatlarının hazırlanması tarixinə Bank rəhbərliyinə məlum olan məlumatlara əsaslanır. Ona görə də, faktiki nəticələr, bu təxminlərdən fərqlənə bilər. Dəyişməyə ən çox məruz qalabiləcək əsas təxminlərə ehtimal edilən itkilər üzrə yaradılan ehtiyatlar və maliyyə alətlərinin ədalətli dəyəri aiddir.

Müştərilərə verilən kreditlər və digər banklara ödəniləcək vəsaitlər ehtimal edilən itkilər üzrə yaradılan ehtiyatlar çıxılmaqla, amortizasiya olunmuş maya dəyərilə ölçülür. Ehtimal edilən itkilər üzrə ehtiyatın yaradılması zamanı əsasən fikir yürütmək lazım gəlir. Ehtimal edilən zərərlər üzrə Bankın kredit portfelində baş verən itkiləri qarşılamaq üçün Bank rəhbərliyi tərəfindən istifadə edilən təxminlər əsasında məqsədə uyğun hesab edilən məbləğdə ehtiyat yaradılır. Şübhəli kreditlər üzrə yaradılan ehtiyatlar belə aktivlərin silinə bilinməsi və bu zaman baş verə biləcək itkilərin ehtimalına əsaslanır. Bu təxminlər tarixi təcrübəyə və statistik vasitələrə əsaslanaraq edilir. Bu təxminlərin hesablanması zamanı həmçinin rəhbərliyin peşəkar mövqeyindən də istifadə edilir.

Bank rəhbərliyi hesab edir ki, ehtiyatlarla bağlı təxminlər ən əsas subyektivlik daşıyan məqamdır çünki: (i) gələcəkdəki itkilərin faizi və şübhəli kreditlər üzrə yarana biləcək itkilərin ölçülməsi üzrə edilən ehtimallar müxtəlif dövrlər arasında dəyişir, hesabat tarixində isə bu ehtimallar yalnız cari təcrübəyə əsaslanır, və (ii) Bankın təxmin etdiyi (yaradılan ehtiyatlar şəklində öz əksini tapmış) itkilərlə faktiki itkilər arasında əhəmiyyətli fərqlər yaranarsa, bu fərqlər Bankın gələcəkdəki mənfəət və zərər, eləcə də balans göstəricilərinə təsir göstərə bilər. Ehtimal edilən zərərlər üzrə Bankın təxminlərinə, həmçinin əvvəlki təcrübə, müştərilərin davranışı, kredit verilən müəssisənin cari keyfiyyət göstəriciləri və ümumi iqtisadi şərait də daxildir. Bu göstəricilərlə gələcəkdə baş verə biləcək faktiki itkilər arasında birbaşa əlaqə olmaya bilər.

Vergi bazasını artıran bütün müvəqqəti fərqlər üzrə təxirəsalınmış vergi aktivi tanınır. Bu zaman Bank gələcəkdə əldə ediləcək mənfəətlə bağlı təxminlərə əsaslanaraq ehtimal edilən gələcək mənfəətin imkan verdiyi qədər vergi aktivi tanıyır. Vergi məsələləri qeyd 19 və 21-də əlavə olaraq müzakirə olunur.

## 2. TƏQDİMATIN ƏSASLARI (davamı)

## ƏSAS MÜHASİBAT PRİNSİPLƏRİ

### Başlıca tanınma və ölçülmə qaydaları

Bank müqaviləyə əsasən maliyyə aləti üzrə öhdəlik daşıyan tərəfə çevrildiyi zaman maliyyə aktivini və ya passivini balansda tanıyır. Maliyyə aktivlərinin və passivlərinin adi yolla alınması və satılması zamanı hesablaşma günü əməliyyat balansda tanınır. Sonradan əməliyyat və hesablaşma tarixləri arasında ədalətli dəyər üzrə ölçülən maliyyə alətlərinin adi yolla alınması zamanı əldə edilən alətlərin tanınması üçün istifadə edilən prinsiplərdən istifadə edilir.

Mənfəət və zərər hesabatı vasitəsilə ədalətli dəyərdə tanınan maliyə alətləri istisna olmaqla, bütün digər maliyyə aktivləri və passivləri ilkin olaraq ədalətli dəyərlə ölçülür və bu alətlərin alınması və ya buraxılması ilə birbaşa bağlı olan xərclər onun balans dəyərinə əlavə edilir. Sonrakı dövrlərdə bu alətlərin dəyərinin yenidən ölçülməsi ilə bağlı mühasibat prinsipləri aşağıda öz əksini tapır.

### Seqmentlər üzrə hesabat

Seqment bankın tamamilə fərqli bir yönü kimi xidmət göstərən (kommersiya seqmenti) və ya müəyyən iqtisadi mühitdə xidmət göstərən (coğrafi seqment) və eyni zamanda risk və ya ayrılıqda gəlir predmeti olan fəaliyyəti şəklində tanımlanır.

Xarici müştərilərdən alınan ümumi gəlirin böyük hissəsini cəlb edən seqment, ya da bütün digər seqmentlərinin gəlir, maliyyə nəticələri və aktivlərin dəyərlərinin 10%-dən çox olan seqmentin ayrıca hesabatları hazırlanmalıdır. Bu maliyyə hesabatlarında ayrılıqda göstərilən coğrafi seqmentlər hüquqi risklərdən ziyadə iqtisadi risklər əsasında hazırlanmışdır.

### Pul və pul vəsaitlərinin ekvivalentləri

Pul və pul ekvivalentləri elə aktivlərə deyilir ki, onları nəğd vəsaitlərə istənilən zaman tez bir şəkildə çevirmək mümkün olsun və bu zaman onların dəyərində çox cüzi bir fərq baş versin. Overnayt depozitləri istisna olmaqla, bütün qısa müddətli banklararası vəsaitlər, digər banklardan alınacaq vəsaitlərdə təsnif edilmişdir. İstifadə məhdudiyyəti olan vəsaitlər isə pul və pul ekvivalentlərinə daxil edilməmişdir. Pul və pul ekvivalentləri amortizasiya olunmuş maya dəyəri ilə ölçülür. Pul vəsaitlərinin hərəkətini təqdim edərkən Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən tələb edilən məcburi ehtiyatlar, istifadə məhdudiyyəti olduğuna görə, pul və pul ekvivalentləri kateqoriyasına aid edilməmişdir.

### Digər banklardan alınacaq vəsaitlər

Bank digər banklara, ticarət və qeyri-derivativ debitor borclar istisna olmaqla, əvvəlcədən təyin edilmiş və ya müəyyən edilə bilən tarixlərdə ödəmə müddəti çatan vəsaitləri, digər banklardan alınacaq vəsaitər kateqoriyasına aid edir. Digər banklardan alınacaq vəsaitlər amortizasiya olunmuş maya dəyəri ilə ölçülür.

### Müştərilərə verilmiş kreditlər

Müştərilərə verilmiş kreditlər əvvəlcədən təyin edilmiş və ya müəyyən edilə bilən ödəmə qrafikinə malik, aktiv bazarlarda kotirovkası olmayan, qeyri-derivativ aktivlərdir.

## 2. TƏQDİMATIN ƏSASLARI (davamı)

Bank tərəfindən verilmiş kreditlər ilkin olaraq əməliyyat xərcləri də əlavə olunmaq şərtilə ədalətli dəyərlə ölçülür. Qarşı tərərfə verilən vəsaitlərin ədalətli dəyəri, kreditin ədalətli dəyərindən fərqli olduqda, məsələn, kreditin sonrakı faiz dərəcələrindən aşağı dərəcə ilə verilməsi zamanı, verilən vəsaitlərin ədalətli dəyəri ilə kreditin qalıq dəyəri arasındakı fərq kreditin verilməsi zamanı yaranan zərər kimi mənfəət zərər hesabatında tanınır və təbiətinə müvafiq olaraq mənfəət və zərər hesabatında təsnifləşdirilir. Daha sonra kreditlər balansda effektiv faiz dərəcəsindən istifadə etməklə amortizasya olunmuş maya dəyəri ilə tanınır. Müştərilərə verilmiş kreditlər, ehtimal edilən itkilər üzrə yaradılmış ehtiyatlar çıxılmaqla hesabatda təqdim edilir.

### Ehtimal edilən itkilərə ehtiyat ayırmaları

Maliyyə aktivlərinin və ya aktivlər qrupunun dəyərində azalış yaranması ilə bağlı rəhbərliyin əlində hər hansı bir obyektiv sübut olduğu hallarda Bank bu aktivlər üzrə itkiləri qarşılamaq məqsədilə ehtiyat yaradır. Ehtimal edilən itkilər, gələcəkdə zəmanət və alınan girovlar da daxil olmaqla, amortizasiya olunmuş maya dəyərində ölçülən aktivlər üzrə gələcəkdə əldə edilə biləcək pul vəsaitlərinin, maliyyə aktivinin yaranması tarixində ilkin effektiv faiz dərəcəsindən istifadə edərilərək diskont edilməsi nəticəsində yaranmış dəyərlə bu aktivlərin qalıq dəyəri arasındakı fərq kimi hesablanır. Sonrakı dövrlərdə, ehtimal edilən itkinin məbləği azalırsa, və azalış həqiqətən də ehtiyat yaradılmasından sonra baş vermiş hər hansı bir hadisə ilə bağlıdırsa, bu zaman belə aktivlər üzrə yaradılan ehtiyatlar geri qaytarılır. Maya dəyəri ilə ölçülən maliyyə aktivləri üçün isə ehtimal edilən itkilər, bu aktivlərdən gələcəkdə əldə edilə biləcək pul vəsaitlərinin bu tip aktivlər üzrə mövcud bazar faiz dərəcəsindən istifadə edərək diskont edilməsi nəticəsində yaranmış dəyərlə bu aktivlərin qalıq dəyəri arasındakı fərq kimi hesablanır. Bu tip ehtiyatlar yaradıldıqdan sonra geri qaytarılmır.

Ehtimal edilən itkilərin hesablanması aktivlər üzrə risk analizinə əsaslanır, və yaradılan ehtiyat rəhbərliyin fikrincə bu aktivlər üzrə itkiləri qarşılamaq üçün kafi hesab edilir. Ehtiyatlar, portfel üçün xüsusi əhəmiyyət kəsb edən risk daşıyan aktivlərin fərdi olaraq, daha az əhəmiyyətli aktivlərin isə kollektiv şəkildə qiymətləndirilməsi əsasında yaradılır.

Ehtimal edilən itkilərdəki dəyişikliklər birbaşa mənfəət və zərər hesabatına aid edilir və balansda yaradılmış ehtiyatlar aktivlərin qalıq dəyərini təqdim edərkən onların balans dəyərindən çıxılır. Bank rəhbərliyi ehtiyat yaradılması üçün obyektiv sübutun olmasına baxarkən borc götürənin və ya qiymətli kağızı buraxan tərəfin likvidlik, ödəmə qabiliyyəti, biznes və maliyyə risklərinə məruz qalması, bu kimi maliyyə aktivlərinin pula çevriləbilmə qabiliyyətindəki dinamika, milli və yerli iqtisadiyyatın inkişafındakı trendlər, alınmış zəmanət və girovların bazar dəyəri kimi göstəricilərdən də istifadə edir. Bu və digər göstəricilər, fərdi olaraq və ya qrup şəklində aktivlər üzrə ehtimal edilən zərərin yaranması üçün obyektiv sübutun olmasını təmin edir.

Bank amortizasiya olunmuş maya dəyəri üzrə ölçülən aktivlər üçün ehtimal olunan itkilər üzrə ehtiyat hesabı yaradır, maya dəyəri üzrə ölçülən aktivlər üçün isə birbaşa silinmə üsulundan istifadə edir.

Qeyd etmək lazımdır ki, itkilərin təxmin edilməsi müəyyən qədər subyektivlik daşıyır. Müəyyən dövrlərdə Bankın faktiki uğradığı zərərlərin yaradılan ehtiyat məbləğindən fərqli olmasının mümkünlüyünə baxmayaraq, ehtiyatın mümkün olan zərərləri qarşılamaq üçün kifayət olması əsasən rəhbərliyin qərarıdır.

### Binalar, avadanlıqlar və qeyri-maddi aktivlər

Binalar, avadanlıqlar və qeyri-maddi aktivlər, yığılmış amortizasiya və ehtimal edilən dəyər azalışları üzrə ehtiyatlar çıxılmaqla balansda tarixi dəyəri ilə tanınır. Köhnəlmə, binalar, avadanlıqlar və qeyri-maddi aktivlərin qalıq dəyərinə onların faydalı iqtisadi ömrü nəzərə alınmaqla hesablanmış dərəcələrdən istifadə etməklə tətbiq edilir. Amortizasiya üzrə düz xətt üsulu ilə aşağıdakı dərəcələrdən istifadə edilir:

| | |
|---|---|
| Mebel və kompüter avadanlığı | 25% |
| Digər əsas vəsaitlər | 25% |
| Nəqliyyat vasitələri | 25% |
| Qeyri-maddi aktivlər | 10% |
| İcarəyə götürülmüş binaların təmiri | 50% |

## 2. TƏQDİMATIN ƏSASLARI (davamı)

Hesabat tarixində binalar, avadanlıqlar və qeyri-maddi aktivlərin qalıq dəyəri, onlar üzrə əldə ediləbiləcək bazar dəyəri ilə müqayisə edilir və əgər bazar dəyəri qalıq dəyərindən azdırsa, bu aktivlərin qalıq dəyəri bazar dəyərindəki məbləğə uyğunlaşdırılır.

**Ödəniş müddətinə qədər saxlanılan investisiyalar**

Ödəniş müddətinə qədər saxlanılan investisiyalar müəyyən edilə biləcək və ya sabit ödənişlərlə ödəniləcək borc qiymətli kağızlardır. Bank bu cür investisiyaların müddət sonunadək saxlanılmasına dair müsbət niyyətdədir və bu imkana malikdir. Bu cür investisiyalar hər hansı qiymətdəndüşmə itkiləri ilə bağlı ehtiyatların çıxılmaqla amortizasiya olunmuş maya dəyəri ilə tanınır. Amortizasiya olunmuş məbləğ effektiv faiz metodunun istifadə edilməsi ilə müddət sonunadək olan dövr ərzində faiz gəlirində tanınır.

**İnvestisiya mülkiyyəti**

Bank tərəfindən girov kimi qoyulduğu kredit müqaviləsinin ödənişlərin qeyri-təqdimatlı olduğu təqdirdə və Bank tərəfindən istifadə olunmayan halda alınmış bina və tikililərə investisiya əmlakı deyilir. İnvestisiya əmlakı ilkin olaraq ödənilməmiş kreditdən sövdələşmə xərclərinin çıxılmaqla əmələ gələn məbləğdə tanınır. Bundan sonra, investisiya əmlakı verilmiş kreditdən yığılmış köhnəlmənin və tanınmış qiymətdəndüşmə itkilərinin çıxılmasından sonra əmələ gələn məbləğdə əks etidirilir. Köhnəlmə düz xətli və bərabər faizli amortizasiya metodu ilə 2% köhnəlmə dərəcəsi ilə hesablanır.

**Vergi qanunvericiliyi**

Vergi xərcləri cari və təxirəsalınmış vergi xərclərinin cəmindən ibarətdir.

Cari vergi xərci hesabat dövrü ərzində yaranmış vergi mənfəəti əsasında hesablanır. Hesabatdakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə gorə vergi mənfəəti hesabatdakı mənfəətdən fərqlənir. Bankın cari mənfəət vergisi xərci, hesabat dövründə qüvvədə olan vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi isə aktiv və passivlərin mühasibat uçotuna uyğun qalıq dəyərləri ilə onları vergiyə uyğun qalıq dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlərin əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir. Təxirə salınmış vergi passivi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq balansda tanınır. Müvəqqəti fərqlərin mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və passivlərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və passivləri balansda tanınmır.

Təxirə salınmış vergi aktivinin qalıq dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirəsalınmış vergi xərci və ya gəliri birbaşa mənfəət və zərər haqqında hesabatda əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər də səhmdar kapitalında öz əksini tapır.

Təxirə salınmış vergi aktivi və vergi passivi o zaman qarşılaşdırılaraq xalis şəkildə təqdim edilə bilər ki, bu təxirə salınmış aktiv və passivlər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edilsin və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə aid edilsin.

## 2. TƏQDİMATIN ƏSASLARI (davamı)

### Müştəri hesabları

Müştəri hesabları fərdi müştərilərə, dövlət və özəl müəssisələrin vəsaitlərini təmsil edir və hesablar balansda amortizasiya olunmuş maya dəyəri ilə tanınır.

### Nizamnamə kapitalı

Nizamnamə kapitalına edilən əlavələr maya dəyəri ilə tanınır.

Adi səhmlər üzrə dividendlər, səhmdar kapitalında, elan edildiyi dövr üçün səhmdar kapitalını azaldan maddə kimi təqdim edilir. Hesabat tarixindən sonrakı dövrdə elan edilən dividendlər isə, BMS 10 "Hesabat tarixindən sonra baş vermiş hadisələr" standartına uyğun olaraq hesabat tarixindən sonrakı dövrdə baş vermiş hadisələr kimi təqdim edilir.

### Gəlir və xərclərin tanınması

Faiz gəlirləri və xərcləri hesablama prinsipinə uyğun olaraq effektiv faiz dərəcəsi metodundan istifadə etməklə tanınır. Effektiv faiz dərəcəsi metodu, maliyyə aktivinin və ya passivinin amortizasiya olunmuş maya dəyərini hesablayaraq, aid olan faiz gəlirini və xərcini müvafiq dövr ərzində tanınmasını nəzərdə tutur. Effektiv faiz dərəcəsi o dərəcədir ki, maliyyə alətinin gözlənilən ömrü ərzində təxmin edilən pul vəsaitlərinin ödənilməsini və alınmasını maliyyə aktivinin və ya passivinin qalıq dəyərinə tam dəqiqliklə diskont edir.

Əgər maliyyə aktivinin dəyərində ehtimal edilən zərərin nəticəsində qiymətdən düşmə baş verirsə, faiz gəliri bu itkiləri hesablayarkən nəzərə alınan gələcəkdəki pul vəsaitlərinin hərəkətindən istifadə etməklə əldə edilən effektiv faiz dərəcəsi ilə tanınır. Ədalətli dəyərlə ölçülən aktivlər üzrə əldə edilmiş gəlirlər faiz gəliri kimi təsnifləşdirilir.

Kreditlərin verilməsi üçün haqq və komissiya gəlirləri, aidiyyatı birbaşa xərclərlə birlikdə müfaviq dövrlərə təxirə salınır və effektiv faiz dərəcəsinə lazımı düzəlişlər verilir. Kredit üzrə öhdəliklərin kreditə çevrilməsi ehtimal edildiyi hallarda, kredit öhdəliyinin götürüldüyü üçün alınan haqq və komissiyalar effektiv faiz dərəcəsindən istifadə edərək müvafiq dövrlərə təxirə salınır. Kredit üzrə öhdəliklərin kreditə çevrilməsi ehtimal olunmadığı hallarda isə alınan haqq və komissiyalar bu öhdəliyin qüvvədə olması müddətində müvafiq olaraq mənfəət və zərər haqqında hesabatda tanınır. Öhdəlik kreditə çevrilmədən müddəti bitirsə, kredit öhdəliyinin götürüldüyü üçün alınan haqq və komissiyalar mənfəət və zərər haqqında hesabatda öhdəliyin vaxtı bitdikdən sonra tanınır. Kredit xidməti göstərilməsi üzrə xidmət haqqları bu xidmətlər göstərildiyi zaman tanınır.

### Xarici valyutanın çevirilməsi

Xarici valyutada olan pul aktivləri və öhdəlikləri valyuta mübadiləsi qaydalarına və dərəcələrinə uyğun olaraq maliyyə hesabatı zamanı Azərbaycan Manatına çevrilmişdir. Xarici valyuta sövdələşməsi sövdələşmə zamanı mövcud olan valyuta mübadilə dərəcəsi ilə hesablanır. Xarici valyuta mübadiləsi zamanı meydana gələn mənfəət və zərərlər öz əksini xarici valyuta əməliyyatlarından gələn gəlirdə öz əksini tapır.

### Xarici valyuta məzənnələri

Maliyyə hesabatlarının hazırlanması zamanı Bank tərəfindən istifadə edilən il sonu valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2009** | **31 dekabr 2008** |
|---|---|---|
| AZN/1 ABŞ Dolları | 0,8031 | 0.8010 |
| AZN/1 Avro | 1,1499 | 1.1292 |
| AZN/1 Rus rublu | 0,0266 | 0.0272 |

## 2. TƏQDİMATIN ƏSASLARI (davamı)

**Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi**

Bankın hüququ olduğu və aktivləri ilə müvafiq öhdəlliklər arasında ilə əvəzləşdirmə niyyəti olan hallarda maliyyə vəziyyətinə dair hesabatda göstərilən maliyyə aktiv və passivlərinin xalis dəyəri öz əksini tapır. Aktivlərin yenidən sinifləndirmə edilməsini məhdudlaşdıran hallar tədbiq olunduqda Bankın aktiv və passivləri ümumi dəyərlə əks olunur.

**Yeni standartların qəbul edilməsi**

Aşağıda sadalanan yeni standartlar və şərhlər bu maliyyə hesabatlarının hazırlanması üçün məcburi qaydada zəruri hesab olunmuş və 1 yanvar 2009-cu ildən etibarən tətbiq olunmağa başlamışdır:

Bank 1 yanvar 2009-cu ildən aşağıdakı yenilik və düzəliş edilmiş BMHS-ləri qəbul edib:

BMHS 7 'Maliyyə alətləri – Açıqlamalar' (düzəliş) – 1 yanvar 2009-cu ildən etibarən qüvvədədir.
Düzəliş ədalətli bazar dəyəri və likvidlik riski haqqında daha ətraflı açıqlamalar tələb edir. Mühasibat siyasətindəki dəyişiklik yalnız əlavə açıqlamalara təsir göstərdiyinə görə, xüsusilə də, düzəliş ədalətli bazar dəyərinin ölçülməsinin ədalətli bazar dəyəri ölçülməsi iearxiyasına əsasən aparılmasını tələb edir. Bu zaman səhmə düşən gəlirdə heç bir dəyişiklik olmur.

BMHS 8: Əməliyyat Seqmentləri (2007-ci ildə buraxılmışdır) (Bu standart 1 yanvar 2009-cu il tarixdə və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün məcburidir. Bu standart BMS 14-ü – Seqmentlər üzrə Hesabatvermə maddəsini əvəz edir və seqmentlər üzrə informasiyanın illik və aralıq maliyyə hesabatlarında necə təqdim olunacağı və açıqlanacağı üzərində təsirə malik olur. BMHS 8-ə uyğun olaraq, 2009-cu il ərzində buraxılacaq maliyyə hesabatlarında təqdim olunan seqmentlər üzrə məlumat Bankın rəhbərliyi tərəfindən təmin olunan və istifadə olunan məlumat ilə əlaqədardır. Bu aktivlərin və öhdəliklərin ölçü nişanlarına təsir etməyəcəkdir).

BMS 1 (dəyişiklik edilmiş). 'Maliyyə hesabatlarının təqdimatı' – 1 yanvar 2009-cu ildən etibarən qüvvədədir. Düzəliş edilmiş standart, gəlir və xərc maddələrini (kapitalda qeyri-sahibkar dəyişiklikləri) kapitalda dəyişikliklər hesabatında göstərməyi icazə vermir. Kapitalda qeyri-sahibkar dəyişikliklərini kapitalda sahibkar dəyişikliklərindən ayrıca olaraq təfərrüatlı mənfəət zərər hesabatında təqdim etmək məsləhət görülür. Nəticədə, bütün sahibkar kapitalında dəyişikliklər konsolidə olunmuş kapitalda dəyişikliklər hesabatında, qeyri-sahibkar kapitalında dəyişikliklər isə konsolidə olunmuş təfərrüatlı mənfəət zərər hesabatında əks etdirilir. Müqayisəli məlumat həmçinin yenilənmiş standarta uyğun olaraq təqdim edilir. Mühasibat siyasətində dəyişikliklər yalnız təqdimat aspektlərinə təsir etdiyindən səhmə düşən gəlirdə heç bir dəyişiklik baş vermir.

BMHS 2 (düzəliş), 'Pay əsaslı ödənişlər' (1 yanvar 2009-cu ildən etibarən qüvvədədir) hüquq verilmə şərtləri və ləğvetmə ilə sövdələşmə. Bu, hüquq verilmə şərtlərinin yalnız xidmət və icra şərtləri olduğunu aydınlaşdırır. Pay əsaslı ödənişlərin digər cəhətləri hüquq verilmə şərtlərinə aid deyil. Bu cəhətlər işçilər və digər eyni xidmət təqdim edənlərlə əməliyyatlar üçün qrant tarixinə ədalətli dəyərə əlavə edilməlidir; Onlar, qrant tarixindən sonrakı dövrdə hüquq verilməsi gözlənilən mükafatların sayına təsir etməyəcək. Müəssisə və ya digərləri tərəfindən təxirə salınmalar eyni cür uçota salınır. Bank BMHS 2 –ni (düzəliş edilmiş) 1 yanvar 2009-cu ildən etibarən qəbul etmişdir. Düzəlişin maliyyə hesabatlarına maddi təsir etməsi gözlənilmir.

## 2. TƏQDİMATIN ƏSASLARI (davamı)

Kapitallaşmasının başlanğıc tarixi 1 yanvar 2009-cu il və ya daha sonra olan şərtlərə cavab verən aktivlər üçün borclar üzrə məsrəflərə gəldikdə, Bank şərtlərə cavab verən aktivlərin əldə edilməsi, tikintisi və ya istehsalına aid olan borclar üzrə məsrəfləri həmin aktivin birbaşa xərci olaraq kapitallaşdırır. Əvvəlcədən bütün borclar üzrə məsrəflər dərhal xərc kimi tanınırdı. Uçot siyasətində bu dəyişiklik BMS 23 `Borclar üzrə məsrəflər` standartında müddəalarının köçürülməsi ilə bağlı dəyişikliyin qəbul olunması ilə əlaqədardır; müqayisəli rəqəmlər yenilənməyib. Uçot siyasətindəki dəyişiklik səhmə düşən gəlirə əhəmiyyətli təsir etmir. Borclar üzrə məsrəflər daxildə formalaşdırılmış proqram təminatından təşkil olunmuş qeyri-maddi aktivlərin hesabına kapitallaşdırılır.

*Mövcud standartlara hələ qüvvəyə minməmiş və Bank tərəfindən qəbul olunmamış dəyişikliklər, düzəlişlər və şərhlər:*

Mövcud standartlara aşağıdakı düzəliş və əlavələr nəşr olunmuşdur, lakin yalnız 1 yanvar 2010-cu ildən sonra qüvvədə olacaqdır: Bank onları əvvəlcədən qəbul etməmişdir.

BMHŞK 17, 'Nəğdsiz maliyyə aktivlərinin sahibkarlar arasında bölgüsü' (1 iyul 2009-cu ildən qüvvədədir). Şərh BMUSH-nın 2009-cu ilin aprel ayında nəşr olunmuş illik təkmilləşmə layihəsinin bir hissəsidir. Bu şərh müəssisənin səhmdarlara qeyri-maliyyə aktivlərini bölüşdürməsini, ehtiyyatların bölüşdürülməsi və ya dividend şəklində paylamasının qeydiyyatında istifadə edəcəyi mühasibat uçotudur. BMHS 5-də həmçinin aktivlərin yalnız onların bölgü üçün nəzərdə tutulduqda və ya bölgüsü mümkünlüyü çox yüksək olduqda bölgü üçün yaralı hesab olunmasını tövsiyyə edən dəyişiklik edilmişdir. BMHŞK 17 1 yanvar 2010-cu ildən etibarən tətbiq olunmağa başlayacaqdır. Maliyyə hesabatına heç bir maddi təsiri gözlənilmir.

BMS 27 (dəyişiklik edilmiş), 'Konsolidə edilmiş və fərdi maliyyə hesabatları', (1 yanvar 2009-cu ildən qüvvədədir). Yenilənmiş standart nəzarəti olmayan maraqlarla bütün sövdələşmələrin təsirlərinin, dəyişiklik olmadığı halda kapitalda qeyd edilməsini tövsiyyə edir, bu əməliyyatlar artıq qudvil, qazanc və itkilərdə dəyişikliyə səbəb olmayacaqdır. Standart həmçinin nəzarət itirildiyində belə uçotu aydınlaşdırır. Müəssisədə qalan faiz ədalətli dəyərdə yenidən ölçülür və yaranan qazanc və itki mənfəət və zərərdə tanınır. BMS 27 (dəyişiklik edilmiş) 1 yanvar 2010-cu ildən nəzarət olunmayan faizli aktivlərlə sövdələşmələrə tətbiq olunacaqdır.

BMHS 3 (dəyişiklik edilmiş), 'Biznes kombinasiyaları' (1 iyul 2009-cu ildən qüvvədədir). Dəyişiklik edilmiş standart bəzi dəyişiklərlə satınalma metodlarını biznes kombinasiyalarına tətbiq etməyə davam edir. Misal üçün, Biznesin alınması üçün bütün ödənişlər alınma tarixində ədalətli dəyərdə və sonradan mümkün ödəmələr borc kimi təsnif edilmiş və sonralar isə gəlir xərc hesabatı vasitəsilə yenidən ölçülür.

Belə bir seçim də vardır ki, ardıcıl alınma əsasında nəzarət edilməyən faizi satın alınan müəssisədə ədalətli dəyərdə və ya nəzarət olunmayan faizin alınan müəssisələrin xalis aktivlərinin proporsiyasında göstərmək olar. Satınalma ilə bağlı bütün məsrəflər xərcə aid edilməlidir. BMHS 3 (dəyişiklik edilmiş) 1 yanvar 2010-cu ildən etibarən bütün biznes kombinasiyalarına tətbiq olunacaqdır.

BMS 38 (düzəliş edilmiş), 'Qeyri-maddi aktivlər'. Düzəliş İASB`nin 2009-cu ilin aprelində nəşr edilmiş illik təkamül layihəsinin bir hissəsidir və BMS 38 (düzəliş edilmiş) BMHS 38 (dəyişiklik edilmiş) qüvvəyə mindikdən sonra etibarlı olacaqdır. Düzəliş biznes kombinasiyasında əldə edilmiş qeyri-maddi aktivlərin ədalətli dəyərinin hesablanması qaydasını aydınlaşdırır və eyni səmərəli iqtisadi ömrə malik qeyri-maddi aktivlər qrupunun tək aktiv kimi qruplaşdırılmasına icazə verir. Düzəliş maliyyə hesabatında maddi dəyişikliyə səbəb olmur.

## 2. TƏQDİMATIN ƏSASLARI (davamı)

BMHS 5 (düzəliş edilmiş), 'satış üçün nəzərdə tutulan uzunmüddətli aktivlərinin (və ya silinmə qruplarının) hesablanması. Düzəliş BMUSH`nin 2009-cu ilin aprelində nəşr edilmiş illik təkamül layihəsinin bir hissəsidir. Düzəliş BMHS 5-in satış üçün nəzərdə tutulan dövriyyə aktivləri (və ya silinmə qruplarının) və ya dayandırılmış əməliyyatlar ilə müqayisədə tələb olunan açıqlamaları müəyyən etməsinə aydınlıq gətirir. Həmçinin BMS 1-in ümumi tələblərinin, xüsusilə 15 (ədalətli təqdimata nail olmaq) və 125-ci (hesablamalarda olan qeyri-müəyyənlik mənbələri) bəndlərin hələ də qüvvədə olduğuna aydınlıq gətirilir. BMHS 5 (düzəliş edilmiş) 1 yanvar 2010-cu ildən etibarən qüvvədə olacaq. Düzəlişin maliyyə hesabatında maddi dəyişikliyə səbəb olması gözlənilmir.

BMS 1 (düzəliş edilmiş), 'Maliyyə hesabatlarının təqdimatı'. Düzəliş BMUSH`nin 2009-cu ilin aprelində nəşr edilmiş illik təkamül layihəsinin bir hissəsidir. Düzəliş səhm buraxılması vasitəsilə öhdəliklərin potensial yerinə yetirilməsi onun cari və uzunmüddətli təsnifatına uyğun olmadığına aydınlıq gətirir. Cari öhdəliyin tərifinə əsasən, düzəliş, öhdəliyin, qarşı tərəfin hər an səhmlərlə hesablaşmaq tələbi ola biləcəyi faktına baxmayaraq, uzunmüddətli kimi təsnifləşdirilməsinə icazə verir (müəssisənin uçot dövründən ən az 12 ay sonraya qədər nəğd vəsaitlərin və ya başqa aktivlərin köçürülməsi vasitəsilə qeyri-şərtsiz təxirə salma hüququ olduğu halda) kimi təsnifləşdirilməsinə icazə verir. BMS 1 (düzəliş edilmiş) 1 yanvar 2010-cu ildən etibarən qüvvədə olacaq. Düzəlişin maliyyə hesabatında maddi dəyişikliyə səbəb olması gözlənilmir.

BMHS 2 (düzəliş edilmiş), 'Nəğd və səhmlə ödəniş əməliyyətları qrupları'. BMHŞK 8 'BMHS 2 tətbiq sahəsi` və BMHŞK 11, `BMHS 2- Qrup və Xəzinə Səhmləri Əməliyyatları`-nın əlaqələndirilməsinə əlavə olaraq, düzəliş o şərhə daxil edilməmiş qrupların təşkilinin təsnifatına əsaslanaraq BMHŞK 11-ə də aid edilir. Yeni qaydaların maliyyə hesabatında maddi dəyişikliyə səbəb olması gözlənilmir.

Yuxarıda göstərilən standartların və şərhlərin məcburi xarakter alacağı vaxtdan asılı olmayaraq, Bank onların hamısını 31 dekabr, 2009-cu il tarixdə başa çatan il üzrə, əgər o zaman Banka uyğun olarsa, maliyyə hesabatlarında qəbul etməyi nəzərdə tutur.

Bank növbəti dövrlərdə qüvvəyə minəcək bütün yeni standartların, düzəlişlərin və şərhlərin mümkün təsirini dəyərləndirmişdir və onların 31 dekabr 2009-cu il tarixinə həyata keçirilən əməliyyatlara ciddi təsir etməyəcəyini ehtimal edir.

## 3. PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ

| | 31 dekabr 2009 | 31 dekabr 2008 |
|---|---|---|
| Pul vəsaitlər | 6,217,742 | 264,320 |
| Azərbaycan Respublikası Mərkəzi Bankında yerləşdirilmiş vəsaitlər | 27,752,543 | 23,827,300 |
| **Cəmi pul və puı vəsaitləri** | **33,970,285** | **24,091,620** |

Azərbaycan Respublikası Mərkəzi Bankında yerləşdirilən vəsaitlərə 31 dekabr 2009 və 2008-ci il tarixlərinə müvafiq olaraq 212,837 AZN və 1,706,942 AZN müştəri hesabları üzrə tələb olunan minimum ehtiyatlar aiddir.

## 3. PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ (davamı)

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat üçün pul və pul ekvivalentləri aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2009 | 31 dekabr 2008 |
|---|---|---|
| Pul vəsaitlər | 6,217,741 | 264,320 |
| Digər banklarda olan müxbir hesablar | 12,700,096 | 8,888,522 |
| Azərbaycan Respublikası Mərkəzi Bankında yerləşdirilmiş vəsaitlər | 27,752,543 | 23,827,300 |
| Çıxılsın ARMB-dakı məcburi ehtiyatlar | (212,837) | (1,706,942) |
| **Cəmi pul və pul vəsaitlərinin ekvivalentləri** | **46,457,543** | **31,273,200** |

## 4. BANKLARDAN ALINACAQ VƏSAİTLƏR

Banklardan alınacaq vəsaitlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2009 | 31 dekabr 2008 |
|---|---|---|
| Digər banklarda olan müddətli depozitlər | 4,016 | - |
| Digər banklarda olan müxbir hesablar | 12,700,096 | 8,888,522 |
| Banklardan alınacaq vəsaitlərə hesablanmış faizlər | 11,770 | - |
| Çıxılsın ehtimal edilən zərərlər üçün yaradılan ehtiyatlar | - | - |
| **Cəmi banklardan alınacaq vəsaitlər** | **12,715,882** | **8,888,522** |

Müxbir hesablar Azərbaycan Respublikasında yerləşdirilmişdir. 31 dekabr 2009 və 2008-ci il tarixlərinə banklardan alınacaq vəsaitlər üzrə maksimal kredit riski müvafiq olaraq 12,715,882 AZN və 8,888,522 AZN olmuşdur.

## 5. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR

Müştərilərə verilmiş kreditlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2009 | 31 dekabr 2008 |
|---|---|---|
| Müştərilərə verilmiş kreditlər | 20,526,254 | 14,326,382 |
| Müştərilərə verilmiş kreditlərə hesablanmış faizlər | 219,815 | 1,286,213 |
| Çıxılsın ehtimal edilən zərərlər üçün yaradılan ehtiyatlar | (1,673,422) | (1,568,573) |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **19,072,647** | **14,044,022** |

## 5. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR (davamı)

Aşağıdakı cədvəl girovla təmin olunmuş kreditlərin təsnifatını göstərir, təsnifatda girovun ədalətli dəyəri deyil, o girov üzrə kreditin məbləği göstərilir:

| | 31 dekabr 2009 | 31 dekabr 2008 |
|---|---|---|
| Daşinmaz əmlak və ona dair olan hüqüqlar ilə sığortalanmış kreditlər | 6,693,226 | 9,188,804 |
| Zaminlik məktubları ilə sığortalanmış kreditlər | 3,960,612 | - |
| Avadanliq ilə sığortalanmış kreditlər | 1,700,000 | - |
| Depozit hesabları ilə sığortalanmış kreditlər | 548,053 | 157,342 |
| Daşınar əmləkla sığortalanmış kreditlər | 45,976 | 730,253 |
| Digər girovlarla sığortalanmış kreditlər | 216,412 | - |
| Girovsuz verilən kreditlər | 7,361,975 | 4,249,983 |
| Hesablanmış faiz | 219,815 | 1,286,213 |
| Çıxılsın zərər üzrə yaradılmış ehtiyat | (1,673,422) | (1,568,573) |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **19,072,647** | **14,044,022** |

| | 31 dekabr 2009 | 31 dekabr 2008 |
|---|---|---|
| **İqtisadiyyatın sektorları üzrə təhlil:** | | |
| İstehlak | 6,291,312 | 10,970,910 |
| Enerji | 6,636,077 | 1,792,000 |
| Ticarət | 2,924,132 | 910,201 |
| Tikinti | 4,539,854 | 523,681 |
| Kənd təssərüfatı | 24,035 | 129,590 |
| Digər kreditlər | 110,844 | - |
| Hesablanmış faiz | 219,815 | 1,286,213 |
| Çıxılsın zərər üzrə yaradılmış ehtiyat | (1,673,422) | (1,568,573) |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **19,072,647** | **14,044,022** |

31 dekabr 2009 və 2008-ci il tarixlərində müştərilərə verilən kreditlər üzrə maksimal kredit riski müvafiq olaraq 19,072,647 AZN və 14,044,022 AZN olmuşdur.

| | 31 dekabr 2009 | 31 dekabr 2008 |
|---|---|---|
| **Fiziki və hüquqi şəxslər üzrə təhlil:** | | |
| Fiziki şəxslər | 10,126,172 | 11 814 536 |
| Hüquqi şəxslər | 10,400,082 | 2 511 846 |
| Hesablanmış faiz | 219,815 | 1,286,213 |
| Çıxılsın zərər üzrə yaradılmış ehtiyat | (1,673,422) | (1,568,573) |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **19,072,647** | **14,044,022** |

| | 31 dekabr 2009 | 31 dekabr 2008 |
|---|---|---|
| **Fiziki şəxslərə verilmiş kreditlər üzrə təhlil:** | | |
| İstehlak kreditləri | 6,305,444 | 10,775,974 |
| Tikinti | 1,300,000 | 494,967 |
| Ticarət | 2,496,693 | 414,005 |
| Kənd təssərüfatı | 24,035 | 129,590 |
| **Cəmi fiziki şəxslərə verilmiş kreditlər** | **10,126,172** | **11,814,536** |

## 6. BINALAR VƏ AVADANLIQLAR

Binalar və avadanlıqlar aşağıdakılardan ibarətdir:

| | Binalar | Mebel və qurğular | Kompüter və avadanlıq | Nəqliyyat vasitələri | Digər əsas vəsaitlər | İcarəyə götürülmüş binaların təmiri | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **Balans dəyəri** | | | | | | | |
| 31 dekabr 2007 (audit olunmayıb) | 1,500,000 | 53,980 | 70,828 | 117,697 | 4,618 | 15,239 | 1,762,362 |
| Əlavələr | - | 4,250 | 4,489 | 134,458 | - | - | 143,197 |
| Silinmə | (1,500,000) | (3,552) | (321) | (1,940) | - | (7,404) | (1,513,217) |
| 31 dekabr 2008 | - | 54,678 | 74,996 | 250,215 | 4,618 | 7,835 | 392,342 |
| Əlavələr | - | 1,363,518 | 578,077 | 203,400 | 67,332 | 1,517,442 | 3,729,769 |
| Silinmə | - | (22,406) | (22,078) | (55,800) | (3,592) | (10,213) | (114,089) |
| Transfer | - | 57 | (57) | - | - | - | - |
| 31 dekabr 2009 | - | 1,395,847 | 630,938 | 397,815 | 68,358 | 1,515,064 | 4,008,022 |
| **Yığılmış Amortizasiya** | | | | | | | |
| 31 dekabr 2007 (audit olunmayıb) | 78,750 | 20,018 | 44,767 | 62,827 | 1,022 | 4,034 | 211,418 |
| Illik amortizasiya | 73,792 | 22,166 | 16,075 | 61,059 | 1,133 | 1,124 | 175,349 |
| Silinmə | (152,542) | - | - | (1,940) | - | (2,149) | (156,631) |
| 31 dekabr 2008 | - | 42,184 | 60,842 | 121,946 | 2,155 | 3,009 | 230,136 |
| Illik amortizasiya | - | 95,147 | 34,108 | 50,076 | 4,764 | 128,795 | 312,890 |
| Silinmə | - | (19,104) | (21,550) | (55,800) | (3,592) | (8,440) | (108,486) |
| Transfer | - | (473) | 473 | - | - | - | - |
| 31 dekabr 2009 | - | 117,754 | 73,873 | 116,222 | 3,327 | 123,364 | 435,540 |
| **Qalıq dəyəri** | | | | | | | |
| **31 dekabr 2008** | **-** | **12,494** | **14,154** | **128,269** | **2,463** | **4,826** | **162,206** |
| **31 dekabr 2009** | **-** | **1,278,093** | **557,065** | **281,593** | **65,031** | **1,391,700** | **3,573,482** |

## 7. ÖDƏNİŞ MÜDDƏTİNƏ QƏDƏR SAXLANILAN İNVESTİSİYALAR

| | Nominaldan hesablanmış faiz % | 31 dekabr 2009 | Nominaldan hesablanmış faiz % | 31 dekabr 2008 |
|---|---|---|---|---|
| ARMB-nin borc qiymətli kağızları | | - | 5,29% | 1,998,771 |
| Yığılmış faiz | | - | | 2,057 |
| Azərbaycan İpoteka Fondunun qiymətli kağızları | 3 % | 315,974 | | |
| **Cəmi ödəniş müddətinə qədər saxlanılan investisiyalar** | | **315,974** | | **2,000,828** |

## 8. İNVESTİSİYA MÜLKİYYƏTİ

| | 31 dekabr 2009-cu bitən il üzrə | 31 dekabr 2008-ci bitən il üzrə |
|---|---|---|
| **Balans dəyəri** | | |
| Dövrün əvvəlində | 494,833 | 237,133 |
| Əlavələr | - | 257,700 |
| Dövrün sonunda | 494,833 | 494,833 |
| **Yığılmış köhnəlmə** | | |
| Dövrün əvvəlində | (11,439) | (7,796) |
| İllik amortizasiya | 9,897 | (3,643) |
| Dövrün sonunda | 21,336 | (11,439) |
| **Qalıq dəyəri** | | |
| Dövrün əvvəlində | **483,394** | **229,337** |
| Dövrün sonunda | **473,497** | **483,394** |

31 dekabr 2009-cu il tarixinə investisiya mülkiyyəti 257,700 AZN və 237,133 AZN məbləğində geri qaytarılmamış kreditlər üçün girov qoyulan iki ədəd daşınmaz əmlakı təşkil edir. Məhkəmə Qərarı ilə Bank həmin girovları əldə edib və onları investisiya mülkiyyəti kimi tanıyır.

## 9. DİGƏR AKTİVLƏR

Digər aktivlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2009 | 31 dekabr 2008 |
|---|---|---|
| Bina və avadanlıqlar üçün əvvəlcədən ödənişlər | 659,619 | 1,093,830 |
| Qeyri-maddi aktivlər | 122,559 | 11,401 |
| Əvvəlcədən ödəniş və digər debitor borcları | 76,822 | - |
| Digər əməliyyatlardan alınacaq vəsaitlər | 2,681 | - |
| **Cəmi digər aktivlər** | **861,681** | **1,105,231** |

Bina və avadanlıqlar üçün əvvəlcədən ödənişlər əsasən ATM maşınlarının alınması üçün malsatanlara ödənişlərdən ibarətdir.

## QEYRİ-MADDİ AKTİVLƏR

Qeyri-maddi aktivlər kompüter proqramları və lisenziyalardan ibarətdir:

| | |
|---|---|
| **Balans dəyəri** | |
| 31 dekabr 2007 (audit olunmayıb) | 16,613 |
| Əlavələr | 427 |
| 31 dekabr 2008 | 17,040 |
| Əlavələr | 115,477 |
| 31 dekabr 2009 | **132,517** |

## 9. DİGƏR AKTİVLƏR (davamı)

| | |
|---|---|
| **Yığılmış amortizasiya** | |
| 31 dekabr 2007 (audit olunmayıb) | **3,957** |
| Illik amortizasiya | 1,682 |
| 31 dekabr 2008 | **5,639** |
| Illik amortizasiya | 4,319 |
| 31 dekabr 2009 | **9,958** |
| **Qalıq dəyəri** | |
| **31 dekabr 2008** | **11,401** |
| **31 dekabr 2009** | **122,559** |

## 10. MÜŞTƏRİ HESABLARI

Müştəri hesabları aşağıdakılardan ibarətdir:

| | **31 dekabr 2009** | **31 dekabr 2008** |
|---|---|---|
| Tələbolunanadək olan əmanətlər | 31,758,688 | 32,839,817 |
| Müddətli əmanətlər | 12,465,651 | 6,431,792 |
| Müştəri hesabları üzrə hesablanmış faiz xərcləri | 254,407 | 203,943 |
| **Cəmi müştəri hesabları** | **44,478,746** | **39,475,552** |

| | **31 dekabr 2009** | **31 dekabr 2008** |
|---|---|---|
| **İqtisadiyyatın sektorları üzrə:** | | |
| Enerji | 28,671,037 | 32,553,373 |
| Fiziki şəxslər | 15,320,598 | 6,647,451 |
| Ticarət | 279,768 | 110,392 |
| Nəqliyyat və rabitə | 20,472 | 8,423 |
| Tikinti | 283 | 5,990 |
| Digər | 186,588 | 149,923 |
| **Cəmi müştəri hesabları** | **44,478,746** | **39,475,552** |

## 11. DİGƏR ÖHDƏLİKLƏR

Digər öhdəliklər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2009 | 31 dekabr 2008 |
|---|---|---|
| Kreditorlar ilə hesablaşmalar | 288,135 | 25,170 |
| Gəlir vergisindən başqa digər vergilər | 58,843 | 28,683 |
| Dövlət və digər yerli fondlara olan borclar | 185 | - |
| **Cəmi digər öhdəliklər** | **347,163** | **53,853** |

## 12. NİZAMNAMƏ KAPİTALI

31 dekabr 2009 və 31 dekabr 2008-ci il tarixlərinə qeydiyatdan keçmiş və ödənilmiş adi səhmlər 25,000,216 AZN və 10,784,081 AZN təşkil etmişdir.

31 dekabr 2009 və 31 dekabr 2008-ci il tarixlərinə Bankın nizamnamə kapitalı, hər biri 200 AZN olmaqla müvafiq olaraq aşağıdakı sayda səhmlərdən ibarət olmuşdur:

| | Qeydiyyatdan keçmiş səhmlər | Cəmi səhmlər |
|---|---|---|
| Adi səhmlər | 128,920 | 125,001 |

Azərbaycan Respublikası Mərkəzi Bankının tələblərinə müvafiq olaraq ölkə ərazisində fəaliyyət göstərən kommersiya banklarının minimum nizamnamə kapitalı 1 yanvar 2007-ci il tarixindən etibarən AZN 10 milyon təşkil etməlidir. 1 yanvar 2007-ci il tarixində Bankın nizamnamə kapitalı AZN 9,164,081 təşkil etmişdir. Bank nizamnamə kapitalını 2008-ci ildə 100,000 AZN və 2009-cu ildə 14,216,135 AZN olaraq artırmışdır.

## 13. XALIS FAİZ GƏLİRİ

| | 31 dekabr 2009-cu bitən il üzrə | 31 dekabr 2008-ci bitən il üzrə |
|---|---|---|
| **Faiz gəlirləri aşağıdakılardan ibarətdir:** | | |
| Amortizasiya olunmuş maya dəyərində aktivlər üzrə faiz gəliri: | | |
| - ehtiyat ayrılmamış aktivlər üzrə faiz gəlirləri | 3,016,884 | 2,422,981 |
| - mümkün zərərlər üzrə ehtiyat ayrılmış aktivlər üzrə faiz gəlirləri | 13,417 | 2 722 |
| **Cəmi faiz gəlirləri** | **3,030,301** | **2,425,703** |
| Amortizasiya olunmuş maya dəyərində aktivlər üzrə faiz gəliri: | | |
| Müştəri kreditləri üzrə faiz gəlirləri | 2,998,617 | 2,423,646 |
| ARMB-nin borc qiymətli kağızları üzrə faiz gəlirləri | 31,684 | 2,057 |
| Cəmi amortizasiya olunmuş maya dəyərində maliyyə aktivlər üzrə faiz gəliri: | **3,030,301** | **2,425,703** |
| **Faiz xərcləri aşağıdakılardan ibarətdir:** | | |
| Amortizasiya olunmuş maya dəyərində passivlər üzrə faiz xərcləri | (1,068,586) | (1,190,470) |
| **Cəmi faiz xərcləri** | **(1,068,586)** | **(1,190,470)** |
| Amortizasiya olunmuş maya dəyərində öhdəliklər üzrə faiz xərcləri aşağıdakılardan ibarətdir: | | |
| Müştəri hesabları üzrə faiz xərcləri | (1,068,586) | (1,190,470) |
| Amortizasiya olunmuş maya dəyərində öhdəliklər üzrə cəmi faiz xərcləri | **(1,068,586)** | **(1,190,470)** |
| **Kreditlər üzrə ehtimal edilən zərərlədən əvvəl faiz gəliri** | **1,961,715** | **1,235,233** |

## 14. EHTİMAL EDİLƏN ZƏRƏRLƏR ÜZRƏ EHTİYATLAR, DİGƏR EHTİYATLAR

Faiz gəliri təmin edən aktivlər üzrə ehtiyatların hərəkəti aşağıdakı şəkildə olmuşdur:

| | Müştərilərə verilən kreditlər |
|---|---|
| **31 dekabr 2007** (audit olunmayıb) | **1,243,174** |
| Kreditlər üzrə ehtiyat | 700,840 |
| Aktivlərin silinməsi | (934,770) |
| Əvvəl silinmiş aktivlərin bərpası | 559,329 |
| **31 dekabr 2008** | **1,568,573** |
| Kreditlər üzrə ehtiyat | 2,119,639 |
| Aktivlərin silinməsi | (2,698,211) |
| Əvvəl silinmiş aktivlərin bərpası | 683,421 |
| **31 dekabr 2009** | **1,673,422** |

## 15. XARİCİ VALYUTA İLƏ ƏMƏLİYYATLAR ÜZRƏ GƏLİR

Xarici valyuta ilə əməliyyatlar üzrə gəlir aşağıdakı şəkildə olmuşdur:

| | 31 dekabr 2009-cu bitən il üzrə | 31 dekabr 2008-ci bitən il üzrə |
|---|---|---|
| Dilinq əməliyyatları, xalis | 1,986,309 | 108,506 |
| Valyuta balanslarının yendən qiymətləndirilməsi, xalis | 10,237 | 44,092 |
| **Cəmi xarici valyuta ilə əməliyyatlar üzrə gəlir** | **1,996,546** | **152,598** |

## 16. HAQQ VƏ KOMİSSİYA GƏLİRLƏRİ VƏ XƏRCLƏRİ

Haqq və komissiya gəlirləri və xərcləri aşağıdakı şəkildə olmuşdur:

| | 31 dekabr 2009-cu bitən il üzrə | 31 dekabr 2008-ci bitən il üzrə |
|---|---|---|
| **Haqq və komissiya gəlirləri:** | | |
| Alış yaxud satış əməliyyatları | 1,044,931 | 42,227 |
| Müştəri hesabları açma və xidmət göstərmə | 532,047 | 113,381 |
| Nəğd pul və çek əməliyyatları | 196,152 | 108,773 |
| Kredit öhdəliyi və xidmət göstərmə | 113,275 | 159,770 |
| Qarantiyalar | 67,889 | - |
| Məsləhət və ekspert xidmətləri | 40,000 | 13,170 |
| Plastik kart əməliyyatları | 35,136 | - |
| Digər əməliyyatlar | 6,099 | 6,898 |
| **Cəmi haqq və komissiya gəlirləri** | **2,035,529** | **444,219** |
| **Haqq və komissiya xərcləri:** | | |
| Nəğd və nəğdsiz əməliyyatlar | (219) | - |
| Qarantiyalar | (226) | - |
| Müştəri hesabları açma və xidmət göstərmə | (489) | (1,626) |
| Alqı və satqı əməliyyatları | (7,887) | - |
| Rabitə və koputer xidmətləri mərkəzi | (51,180) | (37,325) |
| Müxbir hesabları açma və xidmət göstərmə | (115,365) | (16,759) |
| Plastik kart əməliyyatları | (167,505) | - |
| Digər əməliyyatlar | (12,222) | (1,145) |
| **Cəmi haqq və komissiya xərcləri** | **(355,093)** | **(56,855)** |

## 17. DİGƏR GƏLİRLƏR

Digər gəlirlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2009-cu bitən il üzrə | 31 dekabr 2008-ci bitən il üzrə |
|---|---|---|
| Əsas vəsaitin satışından əldə olunan gəlirlər | - | 156,631 |
| Digər gəlir | 30,741 | 24,422 |
| **Cəmi digər gəlirlər** | **30,741** | **181,053** |

## 18. ƏMƏLİYYAT XƏRCLƏRİ

Əməliyyat xərcləri aşağıdakılardır:

| | 31 dekabr 2009-cu bitən il üzrə | 31 dekabr 2008-ci bitən il üzrə |
|---|---|---|
| İşçilərlə əlaqəli xərclər | (1,282,560) | (446,883) |
| Köhnəlmə və amortizasiya xərcləri | (327,105) | (180,675) |
| İcarə xərcləri | (309,117) | (36,256) |
| Sosial müdafiə xərcləri | (275,357) | (99,348) |
| Mühafizə xərcləri | (147,378) | (27,366) |
| Rabitə xərcləri | (135,047) | (26,193) |
| Cap və ofis təchizatı | (64,858) | (26,185) |
| Üzvlük haqqları | (52,255) | (1,080) |
| Peşəkar xidmətlər | (38,981) | (31,650) |
| Əsas vəsaitlərlə əlaqəli xərclər | (33,948) | (26,943) |
| Kommunal xidmətlər üzrə xərclər | (21,625) | (7,212) |
| Mənfəət vergisindən başqa digər vergilər | (17,889) | (8,490) |
| Bina və avadanlıqların təmir və saxlama xərcləri | (11,437) | (10,282) |
| Nəqliyyat və ezamiyət xərcləri | (10,995) | (1,820) |
| Reklam və marketinq xərcləri | (7,165) | (1,010) |
| Digər əməliyyat xərclər | (64,729) | (45,034) |
| **Cəmi əməliyyat xərcləri** | **(2,800,446)** | **(976,427)** |

## 19. MƏNFƏƏT VERGİSİ

Bank, vergiləri Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hazırlanmış vergi hesabatlarına və qeydlərinə əsasən hesablayır və bu hesablamalar Beynəlxalq Maliyyə Hesabatları Standartlarından fərqlənə bilər.

Bankda bəzi xərclərin vergi mənfəətindən azaldılmamasına və bəzi gəlirlərin vergidən azad olunmasına görə bəzi daimi vergi fərqləri yaranır.

Təxirə salınmış vergilər maliyyə hesabatlarında göstərilən aktiv və passivlərin qalıq dəyəri ilə onların vergi hesabatındakı qalıq dəyərləri arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir. 31 dekabr 2009 və 2008-ci il tarixlərinə müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınmasında fərqlərdən yaranmışdır.

## 19. MƏNFƏƏT VERGİSİ (davamı)

| | 31 dekabr 2009 | 31 dekabr 2008 |
|---|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlər**: | | |
| Digər aktivlər | 103,080 | 275,277 |
| Müştərilərə verilmiş kreditlər | 250,000 | 43,050 |
| Binalar və avadanlıqlar | 122,559 | - |
| **Cəmi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **475,639** | **318,327** |
| **Vergi bazasını artıran müvəqqəti fərqlər**: | | |
| İnvestisiya mülkiyyətləri | 473,497 | 483,394 |
| **Cəmi vergi bazasını artıran müvəqqəti fərqlər** | **473,497** | **483,394** |
| Xalis vergi bazasını artıran fərqlər | (2,142) | (165,067) |
| Xalis vergi aktivi/passivi mənfəət vergisi faizi ilə (22%, 01.01.2010 tarixindən etibarən 20 %) | 428 | (36,315) |

31 dekabr 2009 və 2008-ci il tarixlərinə vergi bazasını artıran müvəqqəti fərqlər aşağıdakılardır:

31 dekabr 2009-cu və 31 dekabr 2008-ci il tarixlərinə olan vergilər üzrə xərclərin və mühasibat mənfəətinin arasındakı mövcud olan münasibət aşağıda açıqlanıb:

| | 31 dekabr 2009-cu bitən il üzrə | 31 dekabr 2008-ci bitən il üzrə |
|---|---|---|
| Vergidən əvvəlki mənfəət | 749,353 | 278,981 |
| Vergi dərəcəsi | 22% | 22% |
| Qanunla müəyyən olunmuş vergi dərəcəsinə əsasən hesablanmış mənfəət vergisi | 164,858 | 61,376 |
| Daimi fərqlərin vergi effekti | (110,920) | 17,889 |
| 3-illik vergidən azadolma effekti | (24,084) | (36,315) |
| **İl üzrə mənfəət vergisi** | **29,854** | **42,950** |
| Cari mənfəət vergisi xərci | 54,366 | 67,320 |
| Təxirə salınmış vergi aktivində (öhdəliyində) dəyişikliklər | (24,512) | (24,369) |
| **İl üzrə mənfəət vergisi** | **29,854** | **42,950** |

14 noyabr 2008-ci il tarixli yeni "Banklarda, Sığorta və Təkrarsığorta şirkətlərində kapitalizasiyanın artırılmasının stimullaşdırılması" Qanunu imzalanmışdır. Bu Qanuna əsasən banklar, sığorta və təkrarsığorta şirkətləri üçün mənfəət vergisinin dərəcəsi 1 yanvar 2009-ci il tarixdən etibarən gələcək 3 il üçün 0%-a endirilmişdir və bununla bütün mənfəətlərin biznesdən xaric olunmaması təmin edilmişdir. Bank, bu qanunu illik mənfəət vergisi və təxirəsalınmış verginin hesablanmasında nəzərə almışdır.

| | 31 dekabr 2009 | 31 dekabr 2008 |
|---|---|---|
| **Təxirə salınmış vergi öhdəliyi** | | |
| **İlin əvvəlində** | - | (24,369) |
| Dövr üzrə mənfəətə təsir edən mənfəət vergisi öhdəliyində/aktivində dəyişikliklər | 24,512 | 24,369 |
| Birbaşa səhmdar kapitalında əks olunan təxirə salınmış vergi xərci | - | - |
| **İlin sonunda** | 24,512 | - |

## 20. BİZNES SEQMENTLƏRİ

Bank iki seqmentdən təşkil olunmuşdur.

- Fərdi Bankçılıq - fərdi bankçılıq xidmətləri göstərmək, fərdi müştərilərin carı hesabları, yığım əmanətləri, əmanətlər, investisiya yığımları məhsulu, himayədarlıq, kredit və debit kartlar, istehlak kreditləri və ipotekalar.

- Korporativ bankçılıq - birbaşa debet xidmət vasitələri, cari hesablar, əmanətlər, overdraftlar, kredit və digər kredit növləri, xarici valyuta və törəmə xidmətlər.

Biznes seqmentləri ilə mübadilələr normal kommersiya şərtləri və mühitindədir. Fondlar sadə formada seqmentlər arasında yerləşdirilmişdir, maliyyələşdirmə xərcləri əməliyyat xərclərinin daxilində yerləşdirilmişdir. Maliyyələşdirmə zamanı tətbiq olunan faiz dərəcələri bankın kapitallaşdırma xərclərinə uyğun olaraq təyin olunur. Biznes seqmentləri arasında mənfəət və zərərə aid digər göstəricilər şamil edilməmişdir. Daxili xərclər və köçürmənin qiymətləndirilməsinin nizama salınması hər biznesin öz fəaliyyətində əks olunmuşdur. Gəlirin bölüşdürülməsi razılaşması xarici bazar iştirakçılarının gəlirlərinin müəyyən əsaslarla yerləşdirilməsində istifadə olunur.

Bu biznesdəki seqmentlər haqqında məlumat aşağıda göstərilmişdir.

31 dekabr 2009-cu il tarixinə

| | Qeyd | "Korporativ bankçılıq " | "Fərdi bankçılıq " | "Bölüşdürülmüş xidmətlər " | "Bölüşdürülməyən " | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Xaric gəlir** | | | | | | |
| Xalis faiz gəliri | | 2,259,164 | (2,417,088) | - | - | (157,924) |
| Xalis haqq və komissiya gəliri | | 1,401,003 | 279,434 | - | - | 1,680,437 |
| Digər əməliyyat gəliri | | 1,690,175 | 337,111 | - | - | 2,027,286 |
| **Cəmi segment gəliri** | | 5,350,342 | (1,800,543) | - | - | 3,549,799 |
| Seqmentin nəticələri | | (2,334,769) | (465,677) | - | - | (2,800,446) |
| Gəlir vergisi üzrə xərclər | | - | - | (29,854) | - | (29,854) |
| **Dövriyyənin mənfəəti** | | **-** | **-** | **-** | **-** | **719,499** |
| Seqmentin aktivləri | | 53,184,507 | 6,672,539 | 11,150,914 | - | 71,007,960 |
| Bölüşdürülməmiş aktivlər | | - | - | - | - | - |
| **Cəmi aktivlər** | | **53,184,507** | **6,672,539** | **11,150,914** | **-** | **71,007,960** |
| Seqmentin öhdəlikləri | | 29,204,026 | 15,274,719 | 347,164 | - | 44,825,909 |
| Bölüşdürməmiş öhdəliklər | | - | - | - | - | - |
| **Cəmi öhdəliklər** | | **29,204,026** | **15,274,719** | **347,164** | **-** | **44,825,909** |
| Maliyyə aktivləri üzrə qiymətdən düşmə zərərləri | | - | - | (2,119,639) | - | (2,119,639) |
| Köhnəlmə və amortizasiya | | - | - | (327,105) | - | (327,105) |

## 20. BİZNES SEQMENTLƏRİ (davamı)

31 dekabr 2008-ci il tarixinə

| | Qeyd | "Korporativ bankçılıq" | "Fərdi bankçılıq" | "Bölüşdü-rülmüş xidmətlər" | "Bölüşdü-rülməyən" | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Xaric gəlir** | | | | | | |
| Xalis faiz gəliri | | 162,428 | 371,966 | - | - | 534,394 |
| Xalis haqq və komissiya gəliri | | 117,738 | 269,625 | - | - | 387,363 |
| Digər əməliyyat gəliri | | 101,412 | 232,239 | - | - | 333,651 |
| **Cəmi segment gəliri** | | **381,578** | **873,830** | **-** | **-** | **1,255,408** |
| Seqmentin nəticələri | | (296,783) | (679,644) | - | - | (976,427) |
| Gəlir vergisi üzrə xərclər | | - | - | (42,950) | - | (42,950) |
| **Dövriyyənin mənfəəti** | | - | - | - | - | **236,031** |
| Seqmentin aktivləri | | 39,866,027 | 8,894,646 | 2,015,150 | - | 50,775,823 |
| Bölüşdürülməmiş aktivlər | | - | - | - | - | - |
| **Cəmi aktivlər** | | **39,866,027** | **8,894,646** | **2,015,150** | | **50,775,823** |
| Seqmentin öhdəlikləri | | 32,832,264 | 6,643,288 | 53,854 | - | 39,529,406 |
| Bölüşdürməmiş öhdəliklər | | - | - | - | - | |
| **Cəmi öhdəliklər** | | **32,832,264** | **6,643,288** | **53,854** | | **39,529,406** |
| Maliyyə aktivləri üzrə qiymətdən düşmə zərərləri | | - | - | (700,840) | - | (700,840) |
| Köhnəlmə və amortizasiya | | - | - | (180,674) | - | (180,674) |

## 21. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində Bank müştərilərinin tələbatlarını qarşılamaq məqsədilə balanskənarı risklər yarada biləcək maliyyə alətlərində tərəf kimi çıxış edir. Müxtəlif kredit risklərinə malik bu alətlər balans hesabatında öz əksini tapmamışdır. Müştərilərin öhdəliklərini yerinə yetirə bilmədikləri hallarda, girov və zəmanətlərin dəyərsiz olduğu zaman şərti öhdəliklər və təəhhüdlər üzrə Bankın maksimum kredit itkisi, bu maliyyə alətlərini yaradan kontraktlar üzrə göstərilən məbləğlər şəklində təyin edilir.

***Əməliyyat lizinqi üzrə öhdəliklər*** – Bankın icarəçi qismində iştirak etdiyi müqavilələrdə, ləğv edilməsi mümkün olmayan gələcək icarə haqqları aşağıdakı kimidir:

| | 31 dekabr 2009 | 31 dekabr 2008 |
|---|---|---|
| 1 ildən az olan müddətə | 310,534 | 59,580 |
| 1 ildən çox lakin 5 ildən az olan müddətə | 295,239 | 57,240 |
| **Cəmi əməliyyat lizinqi üzrə öhdəliklər** | **605,773** | **116,820** |

***Məhkəmə işləri*** – Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Banka qarşı iddialar irəli sürülür. Bankın rəhbərliyi hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün heç bir ehtiyat yaradılmamışdır.

Banka qarşı adətən müştərilər tərəfindən kreditlərin alınmaslı zamanı hesablanan komissiyalarla bağlı müəyyən iddialar irəli sürülür.

## 21. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR (davamı)

*Vergi qanunvericiliyi*

Azərbaycan vergi qanunvericiliyindəki müddəalara bəzən müxtəlif şərhlər və dəyişikliklər baş verir və bu dəyişikliklər müxtəlif mənalarda şərh edilə bilər və nəticədə Azərbaycan verrgi orqanları bu müddəaları özləri hesab etdikləri kimi şərh edə bilərlər. Praktikada, Azərbaycan vergi orqanları belə hallarda adətən vergi ödəyicilərinin əleyhində qərar çıxarırlar ki, nətcədə vergi ödəyiciləri öz hüquqlarını məhkəmə vasitəsilə müdafiə etməyə məcbur olurlar. Qeyd etmək lazımdır ki, Azərbaycan vergi orqanları məhkəmə orqanları tərəfindən təqdim edilmiş "haqsız vergi qazancı", "əməliyyatın əsas kommersiya məqsədi" konsepsiyalarından və "əməliyyatın kommersiya mahiyyəti/(məqsədi)" kriteriyasından istifadə edə bilərlər.

Belə qeyri-müəyyənliklər, əsasən maliyyə instrumentlərinin/derivativlərin və transfer qiymətini təyin etmək məqsədilə əməliyyatın bazar qiymətinin istifadə edilməsi zamanı vergi qanunvericiliyinə uyğun olaraq şərhinə aid edilə bilər. Bu hallar eləcə də kreditlər üzrə ehtiyatların yaradılması zamanı yaranan müvəqqəti fərqlərin və bunun vergi öhdəliyinə təsirinin vergi orqanları tərəfindən mənfəət vergisi bazasının bilərəkdən azaldılması kimi şərh ediməsinə air edilə bilər. Rəhbərlik əmindir ki, bütün lazımi vergilər hesablanmış, öhdəliklər yaradılmışdır və ona görə də əlavə vergi ehtiyatının yaradılmasına ehtiyac yoxdur.

Ümumiyyətlə, vergi ödəyicilərinin audit tarixindən əvvəlki üç ilə aid maliyyə təsərrüfat fəaliyyəti vergi orqanları tərəfindən yoxlanıla bilər. Bundan əlavə, vergi yoxlamaları başa çatsa belə aparılmış yoxlamaların daha yüksək vergi orqanları tərəfindən yoxlanılması ehtimalı da istisna edilmir. Həmçinin, Azərbaycan Konstitusiya Məhkəməsinin qərarının müddəalarına əsasən vergi yoxlamasının əhatə etdiyi üç illik limit, məhkəmənin qərarına əsasən vergi ödəyicisinin vergi orqanlarını bilərək yanlış yönləndirdiyi və onlara çaşdırıcı məlumatlar verdiyi hallarda uzadıla bilər.

## 22. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

BMS 24 "Əlaqəli tərəflərlə bağlı qeydlər" standartının tələblərinə əsasən əlaqəli tərəflər və ya əlaqəli tərəflərlə əməliyyatlar aşağıdakılardan ibarətdir:

(a) Bankın birbaşa, dolayı yolla və ya hər hansı bir üçüncü tərəf vasitəsilə nəzarət etdiyi, nəzarətində olduğu və ya bərabər nəzarət altında olduğu tərəflər (buraya ana şirkətlər, törəmə müəssisələr, eyni səviyyədə olan törəmə müəssisələr aiddir); Bankın fəaliyyətində marağı və bu fəaliyyətə əhəmiyyətli dərəcədə təsir göstərmək imkanı olan şəxslər; və Bankın fəaliyyətinə ortaq nəzarət həyata keçirən şəxslər;

(b) Assosiasiya edilmiş müəssisələr – Bank tərəfindən fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərilə biləcək, lakin törəmə və ya birgə müəssisə olmayan tərəflər;

(c) Bankın tərəf kimi çıxış etdiyi birgə müəssisələr;

(d) Bankın və ya ana şirkətin idarə heyətinin üzvləri;

(e) (a) və ya (d) bəndlərində göstərilən şəxslərin yaxın ailə üzvləri;

(f) (d) və ya (e) bəndlərində göstərilən şəxslər tərəfindən birbaşa və ya dolayısı yolla səsvermə hüquqlarının əhəmiyyətli hissəsini əlində cəmləşdirən nəzarətdə olan tərəflər,müəssisələr və birgə müəssisələr aiddir; və ya

(g) İş müddəti bitdikdən sonra Bankın keçmiş işçiləri və ya Bankın əlaqəli olduğu şəxs tərəfindən alınacaq mükafatlar.

## 22. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR (davamı)

Bank 31 dekabr 2009 və 2008-ci il tarixlərinə əlaqəli tərəflərə aid aşağıdakı qalıqları mövcud olmuşdur:

| | **31 dekabr 2009** | | **31 dekabr 2008** | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| **Müştərilərə verilmiş kreditlər** | | **20,746,069** | | **14,044,022** |
| *- bank üzərində əhəmiyyətli təsiri və ya birgə nəzarəti olan müəssisələr* | 2,007,570 | | | |
| *- bankın rəhbər inzibatçı işçiləri* | 76,445 | | 266,155 | |
| **Ehtimal edilən zərər üzrə ehtiyat** | | **(1,673,422)** | | **(1,568,373)** |
| *- bank üzərində əhəmiyyətli təsiri və ya birgə nəzarəti olan müəssisələr* | - | | - | |
| *- bankın rəhbər inzibatçı işçiləri* | - | | (5,113) | |
| **Müştəri hesabları:** | | **44,478,746** | | **39,475,552** |
| *- bank üzərində əhəmiyyətli təsiri və ya birgə nəzarəti olan müəssisələr* | 8,284,395 | | - | |
| *- bankın rəhbər inzibatçı işçiləri* | 444,491 | | - | |

31 dekabr 2009 və 2008-ci il tarixlərinə tamamlanan il üzrə mənfəət və zərər hesabatına aşağıdakı əlaqəli tərəflərlə əməliyyatlar daxildir:

| | **31 dekabr 2009** | | **31 dekabr 2008** | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| **Faiz gəliri** | | **3,030,301** | | **2,425,703** |
| *- bank üzərində əhəmiyyətli təsiri və ya birgə nəzarəti olan müəssisələr* | 1,049,288 | | | |
| *- bankın rəhbər inzibatçı işçiləri* | 4,877 | | 84,262 | |
| **Ehtimal olunan zərər üzrə ehtiyat:** | | **(2,119,639)** | | **(700,840)** |
| *- bank üzərində əhəmiyyətli təsiri və ya birgə nəzarəti olan müəssisələr* | (39,486) | | - | |
| *- bankın rəhbər inzibatçı işçiləri* | (1,515) | | - | |
| **Faiz xərci:** | | **(1,068,586)** | | **(1,190,470)** |
| *- bank üzərində əhəmiyyətli təsiri və ya birgə nəzarəti olan müəssisələr* | (37,707) | | - | |
| *- bankın rəhbər inzibatçı işçiləri* | (44,471) | | - | |
| **Haqq və komissiya gəlirləri:** | | **2,035,529** | | **444,219** |
| *- bank üzərində əhəmiyyətli təsiri və ya birgə nəzarəti olan müəssisələr* | 829,381 | | **-** | |
| **Rəhbər inzibatçı işçilərə ödənişlər:** | | **(1,282,562)** | | **(446,883)** |
| *- işçilırə qısa müddətli ödənişlər* | (498,685) | | (59,938) | |

## 23. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri BMS 32 "Maliyyə Alətləri: Təqdimat", BMHS 7 "Maliyyə alətləri: Əlavələr" və BMS 39 "Maliyyə Alətləri: Tanınma və Ölçülmə" standartlarına uyğun olaraq təqdim edilmişdir. Ədalətli dəyər, məcburi satış və ya ləğv etmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə vasitəsinin mübadilə edilə bildiyi məbləği təşkil edir və ən yaxşı olaraq bazar qiyməti ilə sübut edilir. Burda təqdim edilən təxminlər Bankın maliyyə alətini bazar vasitəsilə tam və ya qismən dəyişdirdiyi zaman əldə edəcəyi məbləğlərdən fərqli ola bilər. Maliyyə aktiv və passivlərinin ədalətli dəyəri ilə balans üzrə qalıq dəyərləri arasındakı müqayisə aşağıda göstərilmişdir:

| | 31 dekabr 2009 | | 31 dekabr 2008 | |
|---|---|---|---|---|
| | **Qalıq dəyəri** | **Ədalətli dəyəri** | **Qalıq dəyəri** | **Ədalətli dəyəri** |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 33,970,285 | 33,970,285 | 24,091,620 | 24,091,620 |
| Banklara verilmiş kreditlər | 12,715,882 | 12,715,882 | 8,888,522 | 8,888,522 |
| Müştərilərə verilmiş kreditlər | 19,072,647 | 19,072,647 | 14,044,022 | 14,044,022 |
| Müştəri hesabları | 44,478,746 | 44,478,746 | 39,475,552 | 39,475,552 |

## 24. TƏNZİMLƏNMƏ MƏSƏLƏLƏRİ

Tənzimlənmə orqanları tərəfindən qoyulan kapitalın adekvatlığı üzrə tələblərə uyğun olaraq Bank risk dərəcələri üzrə ölçülmüş aktivlərin minimum (7:8)*100 nisbətində məcmu kapitala və (3:8)*100 nisbətində birinci dərəcəli kapitala malik olmalıdır.

Bu nisbətlər müvafiq risk dərəcələrini, itkilər üzrə ehtiyatlar çıxıldıqdan sonra aktivlərə tətbiq etməklə Bazel Komitəsinin təklif etdiyi prinsiplər əsasında hesablanmışdır. 31 dekabr 2009-cu il tarixinə kapitalın adekvatlığını hesablamaq məqsədilə Bankın məcmu kapitalı 26,318,120 AZN və birinci dərəcəli kapitalı 25,174,920 AZN təşkil etmişdir ki, bu da müvafiq olaraq risk dərəcəsi üzrə aktivlərin 88.94% və 85.08%-ni təşkil etmişdir.

## 25. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ SİYASƏTİ

Bankın fəaliyyəti üçün risklərin idarə edilməsi bank əməliyyatlarının mühüm elementini təşkil edir. Bankın əməliyyatlarına təsir göstərəcək əsas risklər aşağıdakılardan ibarətdir:

- Kredit riski
- Likvidlik riski
- Bazar riski.

Bank rəhbərliyi anlayır ki, səmərəli və effektiv risk idarəetmə sisteminə malik olmaq vacib şərtdir. Bu məqsədlə, Bank rəhbərliyi risk idarəetmə qrupu yaradmışdır. Bu qrupun əsas məqsədi Bankı ehtimal edilən risklərə qarşı qorumaq və ona qarşıda qoyulan hədəflərə çatmaq imkanı yaratmaqdır. Risk idarəetmə qrupu vasitəsilə Bank rəhbərliyi, aşağıdakı risklərin idarə olulnmasına nəzarət edir:

***i. Kredit riski***

Bank kredit riskinə məruz qalır ki, bu zaman maliyyə alətinə tərəf olan bir iştirakçı öz öhdəliyini yerinə yetirə bilmir və digər tərəf buna görə maliyyə zərərinə uğrayır.

***ii. Maksimum risk***

Bankın məruz qaldığı maksimum kredit riski fərdi risklərdən və ümumi iqtisadiyyatın daşıdığı risklərdən asılı olaraq əhəmiyyətli dərəcədə fərqlər təşkil edir.

## 25. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ SİYASƏTİ (davamı)

Aşağıdakı cədvəl maliyyə aktivlərinin və öhdəliklərinin risklərə məruz qalmasının maksimum həddini təqdim edir. Maliyyə aktivləri üçün bu məbləğ qarşılaşdırmalar və mövcud girovlar çıxıldıqdan sonra aktivlərin qalıq dəyərinə bərabərdir. Maliyyə qarantiyaları və digər şərti təəhhüdlər üçün kredit riskinə məruz qalmanın maksimum həddi bu qarantiyalar üzrə üçüncü şəxslərə ödənilməli olan mütləq məbləğlər, kredit öhdəliklərində isə müştəri tərəfindən tələb edilən vəsaitlərin məbləği kimi təyin edilir.

| | Maksimum risk | Əvəzləşdirmə | Əvəzləşdirmədən sonra xalis risk | Alınmış girovlar | 31 dekabr 2009 Əvəzləşdirmədən və alınmış girovlar dan sonra xalis risk |
|---|---|---|---|---|---|
| Banklara ödəniləcək vəsaitlər | 12,715,882 | - | 12,715,882 | - | 12,715,882 |
| Müştərilərə verilmiş kreditlər | 19,072,647 | - | 19,072,647 | 12,508,170 | 6,564,477 |

| | Maksimum risk | Əvəzləşdirmə | Əvəzləşdirmədən sonra xalis risk | Alınmış girovlar | 31 dekabr 2008 Əvəzləşdirmədən və alınmış girovlar dan sonra xalis risk |
|---|---|---|---|---|---|
| Banklara ödəniləcək vəsaitlər | 8,888,522 | - | 8,888,522 | - | 8,888,522 |
| Müştərilərə verilmiş kreditlər | 14,044,022 | - | 14,044,022 | 9,794,038 | 4,249,984 |

Bank sektoru əsasən kredit risklərinə, mövcud maliyyə alətləri və şərti öhdəlikləri vasitəsilə məruz qalır. Bankın kredit riskləri əsasən Azərbaycan Respublikasında cəmlənmişdir. Bu risklərin, Bankın risklərin idarə edilməsi üzrə siyasətində göstərilən kredit limitləri ilə əlaqədar müddəaların pozulmamasından əmin olmaq məqsədilə mütəmadi olaraq monitorinq keçirilir. Aşağıdakı cədvəl dəyərlərində azalış yaranan aktivlərin və eləcə də ödəmə tarixlərinə görə aktivlərin təsnifləşdirilməsini təqdim edir:

| | | Vaxtı keçmiş lakin dəyərində azalış yaranmayan aktivlər | | | | 31 dekabr 2009 | |
|---|---|---|---|---|---|---|---|
| | Cari dəyərində azalış qeyd edilməyən | 0-3 ay ərzində | 3-6 ay ərzində | 6 aydan 1ilədək | 1 ildən çox | Cari dəyərində azalış qeyd edilən | Cəmi |
| Banklara ödəniləcək vəsaitlər | 12,715,882 | - | - | - | - | - | 12,715,882 |
| Müştərilərə verilmiş kreditlər | 16,706,667 | 25,530 | 6,250 | 178,980 | 2,155,220 | - | 19,072,647 |

| | | Vaxtı keçmiş lakin dəyərində azalış yaranmayan aktivlər | | | | 31 dekabr 2008 | |
|---|---|---|---|---|---|---|---|
| | Cari dəyərində azalış qeyd edilməyən | 0-3 ay ərzində | 3-6 ay ərzində | 6 aydan 1ilədək | 1 ildən çox | Cari dəyərində azalış qeyd edilən | Cəmi |
| Banklara ödəniləcək vəsaitlər | 8,888,522 | - | - | - | - | - | 8,888,522 |
| Müştərilərə verilmiş kreditlər | 11,192,022 | 2,116,210 | 492,340 | 110,980 | 132,470 | - | 14,044,022 |

### *iii. Coğrafi konsentrasiya*

Rəhbərlik həmçinin qanunvericilik və tənzimləmə sahəsindəki risklərin idarəedilməsinə və bu risklərin Bankın fəaliyyətinə təsirinə nəzarət edir. Bu nəzarət mexanizmi Banka Azərbaycan Respublikasındakı investisiya mühitinin dəyişməsindən yaranan ehtimal edilən zərərləri minimum həddə salmağa şərait yaradır.

## 25. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ SİYASƏTİ (davamı)

Aktiv və passivlər üzrə coğrafi konsentrasiyası aşağıdakı cədvəldə göstərilir:

31 dekabr 2009-cu il tarixinə

| | Azərbaycan Respublikası | İƏİT ölkələri | Qeyri-İƏİT ölkələri | CƏMİ |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 33,970,285 | - | - | 33,970,285 |
| Banklardan alınacaq vəsaitlər | 7,187,063 | 5,528,819 | - | 12,715,882 |
| Müştərilərə verilmiş kreditlər | 19,072,647 | - | - | 19,072,647 |
| Binalar və avadanlıqlar | 3,573,482 | - | - | 3,573,482 |
| Ödəniş müddətinə qədər saxlanılan investisiyalar | 315,974 | - | - | 315,974 |
| İnvestisiya mülkiyyəti | 473,497 | - | - | 473,497 |
| Cari/Təxirə salınmış vergi aktivləri | 24,512 | - | - | 24,512 |
| Digər aktivlər | 861,681 | - | - | 861,681 |
| **CƏMİ AKTİVLƏR** | **65,479,141** | **5,528,819** | **-** | **71,007,960** |
| **ÖHDƏLİKLƏR** | | | | |
| Müştəri hesabları | 44,478,746 | - | - | 44,478,746 |
| Təxirə salınmış vergi öhdəlikləri | - | - | - | - |
| Digər öhdəliklər | 347,163 | - | - | 347,163 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **44,825,909** | **-** | **-** | **44,825,909** |
| **AÇIQ MÖVQE** | **20,653,232** | **5,528,819** | **-** | **26,182,051** |

31 dekabr 2008-ci il tarixinə

| | Azərbaycan Respublikası | İƏİT ölkələri | Qeyri-İƏİT ölkələri | CƏMİ |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 24,091,620 | - | - | 24,091,620 |
| Banklardan alınacaq vəsaitlər | 8,888,522 | - | - | 8,888,522 |
| Müştərilərə verilmiş kreditlər | 14,044,022 | - | - | 14,044,022 |
| Binalar və avadanlıqlar | 162,206 | - | - | 162,206 |
| Ödəniş müddətinə qədər saxlanılan investisiyalar | 2,000,828 | - | - | 2,000,828 |
| İnvestisiya mülkiyyəti | 483,394 | - | - | 483,394 |
| Digər aktivlər | 1,105,231 | - | - | 1,105,231 |
| **CƏMİ AKTİVLƏR** | **50,775,823** | **-** | **-** | **50,775,823** |
| **ÖHDƏLİKLƏR** | | | | |
| Müştəri hesabları | 39,475,552 | - | - | 39,475,552 |
| Təxirə salınmış vergi öhdəlikləri | - | - | - | - |
| Digər öhdəliklər | 53,853 | - | - | 53,853 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **39,529,405** | **-** | **-** | **39,529,405** |
| **AÇIQ MÖVQE** | **11,246,418** | **-** | **-** | **11,246,418** |

## 25. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ SİYASƏTİ (davamı)

***Likvidlik riski***

Likvidlik və faiz risklərinin təhlili aşağıdakı cədvəldə əks olunmuşdur. Cədvəl təfsilatı ilə aşağıdakı kimi tərtib edilmişdir:

(i) Törəmə olmayan maliyyə öhdəliklərinin müqavilə üzrə qalıq ödəmə müddətləri üçün pul vəsaitlərinin hərəkəti həmin maliyyə öhdəlikləri ilə əlaqədar həm faiz, həm də əsas məbləğin ödənişlərinin effektiv faiz dərəcəsi ilə diskont olunmamış formasına əsasən hazırlanmışdır. Bu pul vəsaitlərinin hərəkəti Bankdan borcun ən tez ödənilməsi tələb oluna bilən tarixə əsaslanır;

(ii) Törəmə olmayan maliyyə aktivləri üzrə qalıq ödəmə müddətləri üçün pul vəsaitlərinin hərəkəti müqavilə ilə təyin edilmiş qaydada, bu aktivlər ilə əlaqədar yaranan faiz ödənişləri də daxil olmaqla, effektiv faiz dərəcəsi ilə diskont olunmamış pul vəsaitlərinin hərəkəti əsasında hazırlanmışdır. Əgər, müqavilə qaydasından fərqli ödənişin olması barədə gözlənti varsa, onda qalıq ödəmə müddətləri üzrə pul vəsaitinin hərəkəti müqaviləyə əsasən deyil, ən doğru təxminlərə əsasən hazırlanmışdır.

| | Faktiki orta faiz dərəcəsi | 1 aya qədər | 1 aydan 3 aya kimi | 3 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | Müəyyən olunmamış ödəniş vaxtı | 31 dekabr 2009-cu il tarixinə cəmi |
|---|---|---|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | | | | |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | | 33,757,447 | - | - | - | 212,837 | 33,970,284 |
| Banklardan alınacaq vəsaitlər | 3% | 12,711,867 | - | - | - | 4,136 | 12,716,003 |
| Müştərilərə verilmiş kreditlər | 26% | 1,242,601 | 5,471,926 | 8,231,902 | 6,147,789 | 1,339,334 | 22,433,552 |
| Ödəniş müddətinə qədər saxlanılan investisiyalar | 3% | - | | 4,737 | 371,981 | - | 376,718 |
| **CƏMİ AKTİVLƏR** | | **47,711,915** | **5,471,926** | **8,236,639** | **6,519,770** | **1,556,307** | **69,496,557** |
| **ÖHDƏLİKLƏR** | | | | | | | |
| Müştəri hesabları | 15% | 36,162,346 | 671,464 | 4,358,990 | 7,674,564 | - | 48,867,364 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **36,162,346** | **671,464** | **4,358,990** | **7,674,564** | **-** | **48,867,364** |
| Likvid intervalı | | 11,549,569 | 4,800,462 | 3,877,649 | (1,154,794) | 1,556,307 | |
| Faiz həssaslıq intervalı | | (360,672) | 381,700 | 120,443 | 1,325,292 | | |
| **Yığılmış faiz həssaslığının intervalı** | | (360,672) | 21,028 | 141,471 | (1,183,821) | | |

| | Faktiki orta faiz dərəcəsi | 1 aya qədər | 1 aydan 3 aya kimi | 3 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | Müəyyən olunmamış ödəniş vaxtı | 31 dekabr 2008-ci il tarixinə cəmi |
|---|---|---|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | | | | |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | | 24,091,620 | - | - | - | - | 24,091,620 |
| Banklardan alınacaq vəsaitlər | | 8,888,522 | - | - | - | - | 8,888,522 |
| Müştərilərə verilmiş kreditlər | 21% | 209,388 | 723,093 | 4,509,433 | 325,179 | 9,110,098 | 14,877,191 |
| Ödəniş müddətinə qədər saxlanılan investisiyalar | | 2,000,828 | - | - | - | - | 2,000,828 |
| **CƏMİ AKTİVLƏR** | | **35,190,358** | **723,093** | **4,509,433** | **325,179** | **9,110,098** | **49,858,161** |

## 25. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ SİYASƏTİ (davamı)

| | Faktiki orta faiz dərəcəsi | 1 aya qədər | 1 aydan 3 aya kimi | 3 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | Müəyyən olunmamış ödəniş vaxtı | 31 dekabr 2008-ci il tarixinə cəmi |
|---|---|---|---|---|---|---|---|
| **ÖHDƏLİKLƏR** | | | | | | | |
| Müştəri hesabları | 15% | 33,148,056 | 445,469 | 3,016,316 | 3,925,635 | 893,682 | 41,429,158 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **33,148,056** | **445,469** | **3,016,316** | **3,925,635** | **893,682** | **41,429,158** |
| Likvid intervalı | | 2,042,302 | 277,624 | 1,493,117 | (3,600,456) | 8,216,416 | 8,429,003 |
| Faiz həssaslıq intervalı | | 458 | 73,640 | (20,406) | (1,053,708) | | |
| **Yığılmış faiz həssaslığının intervalı** | | 458 | 74,098 | 53,692 | (1,000,016) | | |

### *Bazar Riski*

Bazar riskini bankların məruz qaldıqları faiz dərəcəsi riski, valyuta riski və digər risk dərəcələr əhatə edir. 2007-cildə Bankların məruz qaldığı risk dərəclərində heç bir dəyişiklik olmamışdı.

Aşağıdakı cədvəldə "dəyişkən risk üzrə ən mümkün dəyişikliklər" əsasında müəyyən edilmiş faiz dərəcəsi riskinin həssaslıq təhlili verilmişdir. Bu dəyişikliklərin dərəcəsi rəhbərlik tərəfindən müəyyən edilir və idarə heyətinə təqdim edilən risk hesabatlarına əks etdirilir

Vergidən əvvəlki mənfəətə təsir:

| | 31 dekabr 2009 | | 31 dekabr 2008 | |
|---|---|---|---|---|
| | Faiz dərəcəsi +1% | Faiz dərəcəsi +1% | Faiz dərəcəsi +1% | Faiz dərəcəsi +1% |
| **Aktivlər:** | | | | |
| Banklardan alınacaq vəsaitlər | 40 | (40) | | |
| Müştərilərə verilmiş kreditlər | 136,677 | (136,677) | 33,706 | (33,706) |
| Ödəniş müddətinə qədər saxlanılan investisiyalar | 20,248 | (20,248) | | |
| **Öhdəlikər:** | | | | |
| Müştəri hesabları | (137,347) | 137,347 | (125,647) | 125,647 |
| **Vergidən əvvəlki mənfəətə olan xalis təsir** | **19,618** | **(19,618)** | **(91,941)** | **91,941** |

## 25. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ SİYASƏTİ (davamı)

Səhmdar kapitalına olan təsir:

| | 31 dekabr 2009 | | 31 dekabr 2008 | |
|---|---|---|---|---|
| | **Faiz dərəcəsi +1%** | **Faiz dərəcəsi +1%** | **Faiz dərəcəsi +1%** | **Faiz dərəcəsi +1%** |
| **Aktivlər:** | | | | |
| Banklardan alınacaq vəsaitlər | 40 | (40) | - | - |
| Müştərilərə verilmiş kreditlər | 136,677 | (136,677) | 33,706 | (33,706) |
| Ödəniş müddətinə qədər saxlanılan investisiyalar | 20,248 | (20,248) | - | - |
| **Öhdəlikər:** | | | | |
| Müştəri hesabları | (137,347) | 137,347 | (125,647) | 125,647 |
| **Səhmdar kapitalına olan xalis təsir** | **19,618** | **(19,618)** | **(91,941)** | **91,941** |

### *Xarici valyuta riski*

Xarici valyuta riski xarici valyuta dəyişikliklərinin maliyyə instrumentlərinin dəyərinə təsiri şəklində başa düşülür. Bank xarici valyuta məzənnə dəyişikliyinin maliyyə vəziyyətinə və pul vəsaitlərinin dövriyyəsinin vəziyyətinə yaradacağı enib qalxma təsirinə məruz qalır.

Bank xarici valyuta məzənnə dəyişikliyi riskinə məruz qalma vəziyyəti aşağıda göstərilmişdir:

| | AZN | USD | EUR | RUR | OTHER | 31 dekabr 2009 cəmi |
|---|---|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | | | |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 32,124,023 | 1,845,135 | 1,127 | - | - | 33,970,285 |
| Banklardan alınacaq vəsaitlər | - | 3,717,642 | 8,988,284 | 12 | 9,944 | 12,715,882 |
| Müştərilərə verilmiş kreditlər | 18,159,587 | 781,682 | - | - | 131,378 | 19,072,647 |
| Binalar və avadanlıqlar | 3,573,482 | - | - | - | - | 3,573,482 |
| Ödəniş müddətinə qədər saxlanılan investisiyalar | 315,974 | - | - | - | - | 315,974 |
| İnvestisiya mülkiyyəti | 473,497 | - | - | - | - | 473,497 |
| Cari/Təxirə salınmış vergi aktivləri | 24,512 | - | - | - | - | 24,512 |
| Digər aktivlər | 860,376 | 1,284 | 21 | - | - | 861,681 |
| **CƏMİ AKTİVLƏR** | **55,531,451** | **6,345,743** | **8,989,432** | **12** | **141,322** | **71,007,960** |
| **ÖHDƏLİKLƏR** | | | | | | |
| Müştəri hesabları | 29,300,433 | 6,204,337 | 8,964,018 | 14 | 9,944 | 44,478,746 |
| Digər öhdəliklər | 326,362 | 518 | 19,520 | - | 764 | 347,164 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **29,626,795** | **6,204,855** | **8,983,538** | **14** | **10,708** | **44,825,910** |
| **AÇIQ BALANS VƏZİYYƏTİ** | **25,904,656** | **140,888** | **5,894** | **(2)** | **130,614** | **26,182,050** |

## 25. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ SİYASƏTİ (davamı)

| | AZN | USD | AVRO | Rus rublu | 31 dekabr 2008 cəmi |
|---|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | | |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 23,539,110 | 523,518 | 28 992 | - | 24,091,620 |
| Banklardan alınacaq vəsaitlər | - | 8 869 829 | 18 597 | 96 | 8,888,522 |
| Müştərilərə verilmiş kreditlər | 11,393,195 | 2,650,827 | - | - | 14,044,022 |
| Binalar və avadanlıqlar | 162,206 | - | - | - | 162,206 |
| Ödəniş müddətinə qədər saxlanılan investisiyalar | 2,000,828 | - | - | - | 2,000,828 |
| İnvestisiya mülkiyyəti | 483,394 | - | - | - | 483,394 |
| Digər aktivlər | 1,105,231 | - | - | - | 1,105,231 |
| **CƏMİ AKTİVLƏR** | **38,683,964** | **12,044,174** | **47,589** | **96** | **50, 775,823** |
| **ÖHDƏLİKLƏR** | | | | | |
| Müştəri hesabları | 26,596,251 | 12,668,859 | 210,429 | 13 | 39,475,552 |
| Digər öhdəliklər | 53,853 | - | - | - | 53,853 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **26,650,104** | **12,668,859** | **210,429** | **13** | **39,529,405** |
| **AÇIQ BALANS VƏZİYYƏTİ** | **12,033,860** | **(624,685)** | **(162,840)** | **83** | |

### *Valyuta riski həssaslığı*

Aşağıdakı cədvəl Bankın AVRO və ABŞ dollarının AZN qarşısında 10% artıb-azalma həssaslığını göstərir. 10% həssaslıq dərəcəsi xarici valyuta riski haqqında hesabatı daxili yuxarı rəhbərliyə təqdim edərkən istifadə olunur və rəhbərliyin xarici valyuta mübadiləsi dərəcələrinə qiymətləndirməsini özündə əks etdirir. Həssaslıq analizinə yalnız balansda qalan xarici valyutada olan maliyyə vəsaitləri daxildir. Maliyyə dövrünün sonunda bu vəsaitlərinin valyuta mübadilə məzənnəsindəki 10 % artıb-azalma fərqi ilə cevrilmə düzəlişi arasındakı fərq nəzərə alınaraq hesablamalar həyata keçirilir. Həssaslıq analizləri, xarici əməliyyatlara borc verənin nominal valyutasından başqa valyutalarda verilən kreditləri də əhatə edir.

| | 31 dekabr 2009-cu il tarixinə | | 31 dekabr 2008-ci il tarixinə | |
|---|---|---|---|---|
| | **AZN/USD +10%** | **AZN/USD -10%** | **AZN/USD +10%** | **AZN/USD -10%** |
| Mənfəət və zərərə təsiri | (14,089) | 14,089 | (62,469) | 62,469 |
| Səhmdarların kapitalına təsiri | (14,089) | 14,089 | (62,469) | 62,469 |

| | 31 dekabr 2009-cu il tarixinə | | 31 dekabr 2008-ci il tarixinə | |
|---|---|---|---|---|
| | **AZN/AVRO +10%** | **AZN/AVRO -10%** | **AZN/AVRO +10%** | **AZN/AVRO -10%** |
| Mənfəət və zərərə təsiri | (589) | 589 | (16,284) | 16,284 |
| Səhmdarların kapitalına təsiri | (589) | 589 | (16,284) | 16,284 |